

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 aprel 2026-cı il, çərşənbə
№ 058 (7125)
Qiyməti 60 qəpik


# Dostluq və qardaşlıq üzərində qurulan münasibətlər

## Azərbaycan-Gürcüstan əlaqələri Cənubi Qafqazın təhlükəsiz inkişafına töhfə verir




Bax səh. 2

## Cənubi Qafqazın nümunəvi ölkələri

Bax səh. 3

## Bir kəndin iki faciəsi

Tarixin bu günündə daha bir faciə yaşamışıq. Söhbət 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə erməni silahlı dəstələri tərəfindən törədilən növbəti vəhşilikdən - Ağdaban faciəsindən gedir.

Artıq həmin faciədən 34 il ötür. İllər bizi Ağdaban və digər bu qəbildən olan qətliamlardan uzaqlaşdırsa da, biz tariximizin kədərli səhifələrini heç vaxt unutmamalıyıq. Bu, bizə ən azından belə faciələri bir daha yaşamamaq, təhlükəsiz gələcəyimizi qurmaq üçün lazımdır.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində xaricdəki havadarlarının dəstəyi ilə torpaqlarımızı işğal altına alan ermənilər özləri barədə “qəhrəman xalq, yenilməz ordu” mifi uydurmuşdular. Reallıqda isə onların sərgilədikləri əməllər və davranışlar tamam fərqli idi. Otuz illik işğal dövründə ermənilər tərəfindən çoxlu sayda müharibə cinayətləri törədilib. Belə ki, ərazilərimiz minalanıb, keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizə raketlər atılıb, mülki infrastruktur məqsədli şəkildə hədəfə alınıb, günahsız insanlar xüsusi amansızlıqla qətlə yetiriliblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri cinayətlər sırasında xüsusi amansızlığı ilə fərqlənir. Həmin qanlı tarixdə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi...

Bax səh. 3

## Bakı WUF13-ə necə hazırlaşır?



Bax səh. 4

## Vyetnam Prezidentini seçdi...

Bax səh. 6

## Rusiya qazın qiymətini qaldırsa....

Bax səh. 6

## Kiyevdən Moskvaya “enerji atəşkəsi” təklifi...

Bax səh. 7

## İlk 3 ayda...

2026-cı ilin birinci rübündə dövlət büdcəsi gəlirlərinin icrasında yüksək nəticələr qeydə alınıb. Belə ki, yanvar-mart ayları ərzində dövlət büdcəsinin gəlirləri 9 milyard 599 milyon manat təşkil edib ki, bu da proqnozu 458,9 milyon manat və ya 5 faiz üstələyib. Dövr ərzində dövlət büdcəsinin xərcləri 8 milyard 012,5 milyon manat proqnoza qarşı 7 milyard 817,1 milyon manat məbləğində icra edilib ki, bu da 97,6 faiz təşkil edir. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 265 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Nəticədə dövlət büdcəsində 1 milyard 781,9 milyon manat profisit (illik müqayisədə 10,1 fazi çox) yaranıb.

2026-cı ilin birinci rübü ərzində icmal büdcənin gəlirləri 8 milyard 852,6 milyon manat, xərcləri isə 9 milyard 43,6 milyon manat məbləğində icra edilib.

Cari ilin ilk rübündə dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 68 milyon 508,8 min manat məbləğində vəsait geri qaytarılıb. Həmin vəsaitlər əsasən fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş...

Bax səh. 5

## Danışıqlar yeni mərhələdə...



Bax səh. 6

## BMT-də islahatlar başlayır...



Bax səh. 4

# Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Prezident İlham Əliyevin qəbulunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkü qəbul edib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru qəbula görə minnətdarlığını bildirərək, dövlətimizin başçısı ilə görüşdən şərəf hissi duyduqlarını dedi.

Muhsin Şentürk Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin bütün sahələrdə uğurlu inkişafı məmnunluqla vurğulandı, dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələrin olmadığı qeyd edildi.

Görüşdə ölkələrimizin prokurorluq orqanları arasında uğurlu əlaqələrin qurulduğu bildirildi, bu xüsusda Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən səmərəli əməkdaşlığa toxunuldu, təcrübə mübadiləsinin genişləndirilməsinin önəmi vurğulandı.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.



# Dostluq və qardaşlıq üzərində qurulan münasibətlər







## Azərbaycan-Gürcüstan əlaqələri Cənubi Qafqazın təhlükəsiz inkişafına töhfə verir

Azərbaycanın yürütdüyü çoxvektorlu xarici siyasət kursu regional əməkdaşlığın inkişafını, siyasi sabitliyin möhkəmləndirilməsini əsas prioritetlərdən biri kimi müəyyənləşdirib. Bu siyasətin əsas mahiyyəti əməkdaşlıq, təhlükəsizlik və yüksəksəviyyəli siyasi dialoqun formalaşdırılması üzərində qurulub - xüsusilə qonşu dövlətlərlə qarşılıqlı etimada əsaslanan tərəfdaşlığın gücləndirilməsi və ümumi təhlükəsizlik mühitinə verilən töhfə Cənubi Qafqazın müasir gündəliyinin aparıcı inkişaf parametrləri sayılır. Bu baxımdan, Azərbaycan qonşu dövlətlərlə münasibətlərinin inkişafı hər zaman diqqət mərkəzində saxlayır. Gürcüstan ilə əlaqələr isə bu siyasətin ən uğurlu nümunələrindən biri kimi çıxış edir. İki ölkə arasında formalaşmış münasibətlər təkcə coğrafi yaxınlıqdan deyil, həm də ortaq maraqlardan, tarixi bağlardan və qarşılıqlı etimaddan qaynaqlanır. Siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və nəqliyyat layihələri, eləcə də regional təhlükəsizlik məsələlərində birgə fəaliyyət bu münasibətlərin çoxşaxəli xarakterini nümayiş etdirir. Aprelin 6-da Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü zamanı da Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq prinsiplərinə əsaslandığı qeyd edilib, əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, energetika, yaşıl enerji, nəqliyyat, sərmayələr və digər sahələrdə uğurla inkişaf etdiyi bildirilib. Müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin münasibətlərimizin genişlənməsində roluna toxunulub.

**Yaxın qonşu, tərəfdaş...**

Tarixi qonşu və strateji əməkdaş sayılan Azərbaycan və Gürcüstan dövlətləri hər zaman öz nümunəvi qarşılıqlı münasibətləri ilə seçiliblər. Hətta uzun illər eyni dövlətin tərkibində olan bu iki xalq hər zaman yüksək səviyyədə əlaqələr qurub, əməkdaşlıq ediblər. SSRİ-nin dağılmasının ardından müstəqillik əldə etmiş Azərbaycan və Gürcustan dövlətləri arasındakı əlaqələr bu illər ərzində daha da möhkəmlənib. İkitərəfli münasibətlərə gəldikdə isə, Azərbaycan ilə Gürcüstan arasında diplomatik əlaqələr rəsmən 1992-ci ildə yaradılsa da, bu əlaqələr 1993-cü ildən - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başlayıb. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstanın, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycanın səfirlikləri fəaliyyətə başlayıb. İki ölkə arasında Birgə İqtisadi Komissiya, parlamentlərdə müvafiq olaraq parlamentlərarası əlaqələr üzrə işçi qrupları mövcuddur.

Qeyd edək ki, ötən dövr ərzində qarşılıqlı səfərlər həm münasibətləri, həm də qarşılıqlı hüquqi qanunvericilik bazasını daha da möhkəmləndirib. İki ölkə arasında çoxsaylı müvafiq sənədlər imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı olduğu dövrdə Gürcüstana çoxsaylı səfərlər edib. Bu dövrdə Gürcüstanın rəsmi şəxsləri də dəfələrlə ölkəmizdə işgüzar və rəsmi səfərlərdə olublar. Səfərlərin intensivliyi göstərir ki, Azərbaycan-Gürcüstan münasibətləri Cənubi Qafqazda ən aktiv siyasi dialoqlardan biridir. Bu dinamika strateji tərəfdaşlıq səviyyəsini bir daha təsdiqləyir.

**Tarixi əlaqələr möhkəm zəmindir...**

Bu əlaqələr qədim tarixi köklərə malikdir. Əsrlər boyu Azərbaycan və Gürcüstan xalqlarını bir-birinə bağlayan dostluq və yaxşı qonşuluq münasibətləri bu gün dövlətlərarası strateji tərəfdaşlıq səviyyəsini daha da irəliyə aparır - ənənələrə söykənən bu münasibətlər yalnız mədəni və humanitar sahələrlə məhdudlaşmayaraq, siyasi və iqtisadi müstəvidə də özünü aydın şəkildə göstərir. Bu baxımdan iki ölkə arasında formalaşmış əməkdaşlıq modeli region üçün də nümunəvi hesab oluna bilər. Azərbaycan Prezidentinin Gürcüstana dövlət səfəri çərçivəsində keçirilən görüşlərin ardından Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatında bildirib ki, əsrlər boyu xalqlarımızı yaxşı qonşuluq və xüsusi tarixi dostluq bağlayıb. Bu, məntiqi olaraq, dövlətlərimiz arasında güclü strateji tərəfdaşlığı əks etdirir. Gürcüstan ilə Azərbaycan arasında münasibətlər müxtəlif istiqamətlər üzrə dinamik qaydada inkişaf edir: "Biz bu prosesdə Sizin şəxsi səylərinizi və iştirakınızı xüsusi dəyərləndiririk".

Bəli, qarşılıqlı səfərlər, müntəzəm görüşlər, aparılan danışıqlar bu münasibətlərin davamlı inkişafına zəmin yaradır. Bu prosesdə həqiqətən də Azərbaycan Prezidentinin rolu xüsusilə diqqət çəkir. Dövlət başçımızın yürütdüyü məqsədyönlü və praqmatik siyasət regionda sabitliyin qorunmasına, əməkdaşlıq mühitinin genişlənməsinə xidmət edir. Beləliklə, tarixi dostluq üzərində qurulan münasibətlər bu gün siyasi iradə və qarşılıqlı maraqlar əsasında daha da möhkəmlənərək uzunmüddətli strateji tərəfdaşlığa çevrilib. Prezident İlham Əliyev mətbuata bəyanatında qeyd edib ki, bu gün müzakirə etdiyimiz məsələlər bir daha onu göstərir ki, Gürcüstan və Azərbaycan hər zaman kimi bir yerdədir: "Bizim tarixi əlaqələrimiz dövlətlərarası əlaqələrimiz üçün möhkəm zəmindir. Əsrlər boyu gürcü və Azərbaycan xalqları dostluq, qardaşlıq şəraitində yaşamışlar və bu gün bu ənənələr davam etdirilir. Bu gün iki müstəqil dövlət kimi Gürcüstan və Azərbaycan inamla inkişaf edir".

**Ərazi bütövlüyü, suverenlik, sərhədlərin toxunulmazlığı dəstəklənir**

Azərbaycan və Gürcüstan münasibətlərinin əsas sütunlarından biri qarşılıqlı şəkildə suverenliyin və ərazi bütövlüyünün dəstəklənməsidir. Bu prinsip iki ölkə arasında etimadın və siyasi yaxınlığın formalaşmasında mühüm rol oynayıb. Xüsusilə mürəkkəb geosiyasi şəraitdə bu cür qarşılıqlı dəstək regional sabitliyin qorunması baxımından böyük əhəmiyyət daşıyır. Azərbaycanın ərazi bütövlüyünün pozulduğu illərdə Gürcüstan daim prinsipial mövqe sərgiləyərək bu məsələdə Azərbaycanın haqlı mövqeyini dəstəkləyib. Tbilisi beynəlxalq hüquqa əsaslanaraq münaqişənin ədalətli və sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış edib. Bu yanaşma iki ölkə arasında siyasi etimadı daha da gücləndirib və tərəfdaşlığın möhkəmlənməsinə töhfə verib. Baş nazir İrakli Kobaxidze Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə Azərbaycanın verdiyi qəti dəstəyə görə təşəkkürünü bildirib: "Gürcüstan öz müstəqilliyini bərpa etdikdən etibarən hər zaman Azərbaycanın milli maraqlarının, suverenliyinin və ərazi bütövlüyünün güclü tərəfdarı olub, hazırda tərəfdarıdır və gələcəkdə də tərəfdarı qalacaq. Bu gün keçirilmiş görüşümüz çərçivəsində, biz nəinki ikitərəfli münasibətləri, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə etdik".

Postmünaqişə dövründə də bu qarşılıqlı dəstək davam edir. Gürcüstan regionda sülhün və sabitliyin bərqərar olunması istiqamətində aparılan prosesləri dəstəkləyir. Tbilisi daim Azərbaycanın bölgədəki sülhyaratma missiyasını yüksək dəyərləndirib. Baş nazir deyib ki, Azərbaycan ilə Ermənistan arasında cari sülh prosesini alqışlayırıq. Gürcüstan dinc yanaşı yaşamağı, konstruktiv əməkdaşlığı və regionda yeni təşəbbüsləri qəti şəkildə dəstəkləyir.

Bundan əlavə, hər iki ölkə beynəlxalq təşkilatlar çərçivəsində də bir-birinin mövqeyini dəstəkləyir. Bu qarşılıqlı həmrəylik onların xarici siyasət kursunun mühüm elementlərindən biri kimi çıxış edir və müstəqillik dövrü ərzində ardıcıl şəkildə davam etdirilir. Prezident İlham Əliyev bəyanatında vurğulayıb ki, biz bütün beynəlxalq təşkilatlarda da hər zaman bir-birimizi dəstəkləyirik: "Cənab Baş nazir qeyd etdiyi kimi, hər zaman bir-birimizin ərazi bütövlüyünü, suverenliyini, sərhədlərimizin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləyəcəyik".

**Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək**

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqlar regionda təhlükəsizlik arxitekturasının möhkəmlənməsinə xidmət edir. Bu reallıqlar iqtisadi layihələrin daha təhlükəsiz mühitdə həyata keçirilməsinə imkan verir və investorlar üçün cəlbedici şərait yaradır. Gürcüstan da bu prosesdə mühüm rol oynayaraq regional əməkdaşlığın vacib halqasına çevrilib. Ölkədəki daxili sabitlik bu mənada diqqət çəkir. Prezident İlham Əliyev deyib ki, bütün uğurların təməlində əsas şərt, əsas amil siyasi sabitlikdir: "Bu siyasi sabitlik Gürcüstanda var. Bunun təminatçısı gürcü xalqıdır və Sizin apardığınız siyasətdir. Biz sizin dostlarınız, qonşularınız kimi buna sevinirik və əminik ki, Gürcüstan-Azərbaycan əlaqələri bundan sonra da inamla inkişaf edəcək".

İki ölkə arasında həyata keçirilən çoxşaxəli layihələr regionun iqtisadi xəritəsinə yeni rəng qatmaqla yanaşı, siyasi sabitliyin möhkəmlənməsinə xidmət edir. Gürcüstanda siyasi sabitliyin qorunması Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır. Bu sabitlik regionda həyata keçirilən iri layihələrin davamlılığını təmin edir və ümumi inkişaf prosesinə müsbət təsir göstərir. Beləliklə, siyasi sabitlik və iqtisadi inkişaf bir-birini tamamlayan əsas faktorlar kimi çıxış edir.

**Cənubi Qafqaz sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilir**

Bakının son 6 ildə yürütdüyü siyasət bütövlükdə regionun təhlükəsizliyinə yeni ştrixlər qatıb. Təsadüfi deyil ki, Azərbaycan dövləti hər zaman bəyan edir ki, regional təhlükəsizlik bizim üçün 1 nömrəli məsələdir. Bu kontekstdə Gürcüstan ilə əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir - hər iki ölkə regionda sabitliyin qorunması və təhlükəsizlik mühitinin gücləndirilməsi istiqamətində oxşar mövqedən çıxış edir. Qlobal miqyasda artan gərginliklər, hətta yaxın-uzaq coğrafiyamızda baş verən qarşıdurmalar fonunda Cənubi Qafqazda sabitliyin qorunması mühüm əhəmiyyət daşıyır. Vaxtilə "münaqişə regionu" adlandırılan Cənubi Qafqaz Azərbaycanın səyi və qətiyyəti ilə sabitlik və əməkdaşlıq məkanı kimi xarakterizə olunur. Prezident İlham Əliyev bəyanatında qeyd edib ki, biz hər dəfə görüşəndə bir çox məsələləri müzakirə edirik, o cümlədən regional vəziyyət, regional təhlükəsizlik məsələlərini. Bu gün də istisna deyil. Bu gün Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranmaqdadır və Cənubi Qafqazda yerləşən ölkələr bu imkanları əldən verməməlidir: "Çünki bu gün sülh, təhlükəsizlik, əmin-amanlıq, sabitlik əfsuslar olsun ki, dünyanın müxtəlif yerlərində pozulur və bunun nəticəsində qanlı toqquşmalar, müharibələr, əzab-əziyyət və itkilər baş verir. Cənubi Qafqazda da vaxtilə buna oxşar mənzərə mövcud idi. Amma bu gün Cənubi Qafqaz artıq sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məkanına çevrilir və mən burada Gürcüstanın rolunu da xüsusilə qeyd etmək istərdim".

Azərbaycan bu prosesdə fəal rol oynayaraq regionda yeni əməkdaşlıq formatlarının formalaşdırılmasına təşəbbüs göstərir. Gürcüstan da bu təşəbbüsləri dəstəkləyərək regional təhlükəsizliyin möhkəmlənməsinə öz töhfəsini verir. Bu əməkdaşlıq yalnız hərbi-siyasi sahə ilə məhdudlaşmır, həm də iqtisadi və humanitar sahələri əhatə edir. Bu isə regionda təhlükəsizlik mühitini daha da gücləndirir, qarşılıqlı etimadı artırır və uzunmüddətli sabitliyin təmin olunması üçün möhkəm zəmin formalaşdırır.

**Qarşılıqlı hörmət, qarşılıqlı inam**

Beləliklə, regionun bugünkü mənzərəsi aydın şəkildə göstərir ki, sülh, əməkdaşlıq və qarşılıqlı münasibətlər sisteminə yeni baxış Cənubi Qafqaz siyasətinin yeni normasıdır. Azərbaycan bölgədə sabitlik yaradan lider dövlət kimi siyasi sabitlik və diplomatik balans - münaqişəsiz qonşuluq modelini irəli sürür. Azərbaycanın rəhbərliyi ilə formalaşan yeni Cənubi Qafqaz modeli həm iqtisadi inteqrasiyanı, həm də siyasi sabitliyi təmin edən mühüm mərhələdir. Bu modelin mərkəzində "sülh naminə əməkdaşlıq" prinsipi dayanır. Nəticə etibarilə, Azərbaycan və Gürcüstan arasında münasibətlər də geniş və çoxşaxəli xarakter daşıyaraq bu məzmunun inkişafında əsaslı rol oynayır. İkitərəfli gündəlik kifayət qədər zəngindir və müxtəlif sahələri əhatə edir. Siyasi dialoq isə müsbət və konstruktiv müstəvidə davam edir. Prezident İlham Əliyev bildirib ki, bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir: "Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik".

*Pərviz SADAYOĞLU*

# Cənubi Qafqazın nümunəvi ölkələri

## Azərbaycan və Gürcüstan bölgədə enerji-nəqliyyat kommunikasiyalarını genişləndirməklə yeni əməkdaşlıq formatı yaradır

Qədim tarixi köklərə malik Azərbaycan və Gürcüstan arasında münasibətlər uğurlu inkişaf yolu keçərək ən yüksək səviyyəyə - strateji tərəfdaşlıq zirvəsinə çatıb. Hər iki dövlət ikitərəfli əlaqələrinə xüsusi əhəmiyyət verərək əməkdaşlığı bütün istiqamətlər üzrə dərinləşdirib, ali səviyyədə təşəkkül tapmış fəal siyasi dialoq təhlükəsizlik, müdafiə, iqtisadi, ticarət, enerji, nəqliyyat-logistika, turizm, mədəni-humanitar və digər sahələrdə ciddi nailiyyətlərə gətirib çıxarıb. Dövlətlər arasında indiyədək 120-dən çox sənəd imzalanıb ki, bu da çoxtərəfli siyasi-iqtisadi proqramların icrası üçün dərin zəmin yaradıb.

Azərbaycan-Gürcüstan ikitərəfli əlaqələrinin inkişafında dövlət və hökumət başçılarının qarşılıqlı səfərləri, XİN-lərarası siyasi məsləhətləşmələr, iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiya və parlamentlərarası dostluq qrupu mühüm rol oynamaqdadır. Prezident İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri isə ikitərəfli əlaqələrin inkişafını daha da irəliyə aparmaq, regiondakı cari proseslər müzakirə etmək və regional iqtisadi bağlantıları inkişaf etdirmək baxımından mühüm fürsət kimi dəyərləndirilə bilər. İlham Əliyevin bəyan etdiyi kimi, bu səfəri iki qardaş ölkə arasındakı əlaqələrə yeni təkan verəcək, dövlətlərarası əlaqələr üçün möhkəm zəmin yaradacaq.

### Ticarət dövriyyəsi 1 milyard dollara yaxınlaşır

Azərbaycan və Gürcüstan arasında müxtəlif sahələrdə birgə icra olunan layihələr həm bu ölkənin regional mövqeyinin artmasına, həm də iqtisadi təhlükəsizliyinin möhkəmlənməsinə və inkişafına töhfə verməkdədir. Enerji və nəqliyyat-logistika sahələrində birgə reallaşdırdığı nəhəng layihələr nəinki ikitərəfli əməkdaşlığımızın inkişafına xidmət edir, hətta regionun hüdudlarını aşaraq qlobal enerji təhlükəsizliyi və qitələrarası nəqliyyat bağlantılarında müstəsna rol oynayır. Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz Dəhlizi kimi mühüm enerji layihələri Avropanın enerji təhlükəsizliyinə töhfə verir, hazırda Azərbaycan qazı 16 ölkəyə ixrac edilir ki, bu coğrafiyada tranzit başlanğıcı kimi Gürcüstanın strateji rolu mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın nefti və qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir.

Azərbaycanın təşəbbüsü ilə reallaşdırılan transmilli layihələr iki ölkə arasında iqtisadi-ticari əməkdaşlığın inkişafını da təmin etməkdədir. Hazırda iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin həcmi 800 milyon dollar təşkil edir və hədəf daha böyük göstəriciyə nail olmaqdadır. İlham Əliyevin vurğuladığı kimi mövcud dinamika ticari dövriyyənin 1 milyard dollara çatmasına səbəb olacaq. Eləcə də digər iqtisadi niyyət və hədəflər qarşısında daha geniştutumlu layihələrin icrasına inamı artırır. Dövlətimizin başçısının xatırlatdığı kimi "Bizim ikitərəfli gündəliyimiz çox genişdir və bu gündəlik getdikcə genişlənir. Yeni layihələr, yeni fikirlər ortaya atılır və birgə səylərlə biz bunları həll edirik. Bunun əsas şərti və amili, əlbəttə ki, bizim ikitərəfli münasibətlərimizdir. Bizim münasibətlər deyə bilərəm ki, bütün qonşular üçün nümunə ola bilər. Çünki onlar qarşılıqlı hörmət, qarşılıqlı inam, ortaq mənfəət, qarşılıqlı maraqlar, dostluq və qardaşlıq üzərində qurulubdur. Əminəm ki, biz bundan sonra da bu yolla uğurla gedəcəyik".



### Birgə tərəfdaşlıq Ermənistan üçün də yeni imkanlar yaradır

Azərbaycan və Gürcüstan Asiya ilə Avropanı birləşdirən körpü kimi daşımalarda da mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmiryolu isə Şərq və Qərb arasında qısa və səmərəli alternativ bağlantı yaradır, həmçinin Orta Dəhliz Azərbaycan və Gürcüstan üzərindən keçir. Hər iki ölkə dəfələrlə sübuta yetiriblər ki, biz beynəlxalq enerji və nəqliyyat layihələrində etibarlı və məsuliyyətli tərəfdaşlardır. Tərəflər müasir inkişaf trendləri və bölgədə yaranmış geoiqtisadi çağırışlar fonunda nəqliyyat və logistika infrastrukturunu inkişaf etdirmək, müasirləşdirmək üçün əlavə addımlar atmaqdadır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi çərçivəsində tranzit gömrük prosedurlarının asanlaşdırılması nəzərdə tutulur ki, bu da beynəlxalq ticarət qaydalarının sadələşdirilməsi fonunda Gürcüstanın beynəlxalq nəqliyyat qovşaqlarına çıxışını daha da asanlaşdıracaq. Eləcə də Orta Dəhlizdə öz strateji mövqeyini artıran Azərbaycan nəqliyyat sistemlərinin ötürücülüyünü daha da gücləndirmək və şaxələndirməklə, o cümlədən Zəngəzur dəhlizini bu qlobal nəqliyyat habına qoşmaqla, Gürcüstanı həm Şərq-Qərb, həm də Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərində təmsil olunmasını təmin edəcək.

Həmçinin Azərbaycan-Gürcüstan strateji müttəfiqliyi Ermənistan üçün də sabitlik və inkişafa təminatı verir. Baş nazir İrakli Kobaxidzenin qeyd etdiyi kimi Azərbaycan Prezidenti ilə keçirilmiş görüş çərçivəsində, nəinki ikitərəfli münasibətlər, həmçinin bütövlükdə Cənubi Qafqaz regionunun gələcəyinə dair məsələləri təfərrüatı ilə müzakirə edildi. Məhz bu nöqteyi-nəzərdən Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin paraflanması və sülh prosesinin möhkəmlənməsi bölgədə yeni əməkdaşlıq formatını təsis etməkdədir. Yekun sülh sazişi imzalandıqdan sonra Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələrində Ermənistanın da yer almasına səbəb olmaqla, nəticədə bölgədə nəqliyyat-logistika zəncirini daha da genişləndirəcək, Şərq və Qərb arasında yeni geosiyasi və iqtisadi coğrafiya formalaşacaq.

### Gürcüstanın ən güclü investisiya partnyoru

İnvestisiya sahəsində əməkdaşlığın yaxşı dinamikasının nəticəsidir ki, Azərbaycan Gürcüstana ən çox sərmayə yatıran ölkədir. Gürcüstanda çox müsbət sərmayə iqliminin mövcud olması Azərbaycan investorlarını davamlı sərmayə təşəbbüskarlığını artırır. İndiyə qədər Azərbaycan tərəfindən Gürcüstan iqtisadiyyatına 3,7 milyard dollar sərmayə qoyulub. Hər iki ölkə yeni investisiya layihələri haqqında fikir mübadiləsi apararaq investisiya proqramını şaxələndirmək və üçüncü ölkələrə də birgə sərmayə qoyuluşunu icra etməyi nəzərdə tutur.

Yeri gəlmişkən, SOCAR bu ölkədə ən iri investor kimi fəal mövqeyini gücləndirməkdədir. Şirkət korporativ investisiya proqramı ilə Gürcüstandakı "Kulevi" terminalına sahib olub, 2008-ci ildə təsis olunmuş "SOCAR Energy Georgia" şirkəti Gürcüstanda ilk yanacaqdoldurma stansiyasını açaraq bu şəbəkəni genişləndirib. Hazırda Gürcüstan ərazisində "SOCAR" brendi altında 50-dən çox stansiya fəaliyyət göstərir. Gürcüstanda pərakəndə neft məhsulları satışı bazarının 75 faizi Azərbaycanın nəzarətindədir. Son illərdə bu ölkənin nəqliyyat, infrastruktur, enerji sektorlarının əsaslı şəkildə yenidən qurulmasında da ölkəmiz əsas maliyyə təchizatçısı kimi çıxış edib.

Həmçinin, Azərbaycan şirkətləri Gürcüstanda ən böyük vergi ödəyiciləridir ki, bu da fiskal yığımlarda da ölkəmizin təminatlı rolunu təsdiqləyir. Eləcə də Gürcüstanın bölgələrində zəruri infrastrukturlar da ölkəmizin sayəsində modernləşdirilib ki, bu da sosial əhəmiyyət daşımaqla əhalinin dayanıqlı kommunal xidmətlərlə təminatını yaxşılaşdırıb. Bütün bunlar onu göstərir ki, qonşu ölkənin iqtisadiyyatının əhəmiyyətli bir hissəsi Azərbaycanın maliyyəsi hesabına təmin olunur.

Beləliklə, Prezident İlham Əliyevin Gürcüstana səfəri iki ölkə arasında siyasi və iqtisadi sahədə əlaqələrin inkişafına təkan verməklə yanaşı, Cənubi Qafqaz regionunda geniş əməkdaşlıq, rifah platformasının möhkəmlənməsinə zəmin yaradacaq.

**E.CƏFƏRLİ**

# Bir kəndin iki faciəsi

## Ağdaban qətliamından 34 il ötür

Tarixin bu günündə daha bir faciə yaşamışıq. Söhbət 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə erməni silahlı dəstələri tərəfindən törədilən növbəti vəhşilikdən - Ağdaban faciəsindən gedir.

Artıq həmin faciədən 34 il ötür. İllər bizi Ağdaban və digər bu qəbildən olan qətliamlardan uzaqlaşdırsa da, biz tariximizin kədərli səhifələrini heç vaxt unutmamalıyıq. Bu bizə ən azından belə faciələri bir daha yaşamamaq, təhlükəsiz gələcəyimizi qurmaq üçün lazımdır.

### Erməni vandallarının çoxsaylı müharibə cinayətləri

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində xaricdəki havadarlarının dəstəyi ilə torpaqlarımızı işğal altına alan ermənilər özləri barədə "qəhrəman xalq, yenilməz ordu" mifi uydurmuşdular. Reallıqda isə onların sərgilədikləri əməllər və davranışlar tamam fərqli idi. Otuz illik işğal dövründə ermənilər tərəfindən çoxlu sayda müharibə cinayətləri törədilib. Belə ki, ərazilərimiz minalanıb, keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimizə raketlər atılıb, mülki infrastruktur məqsədli şəkildə hədəfə alınıb, günahsız insanlar xüsusi amansızlıqla qətlə yetiriliblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri cinayətlər sırasında xüsusi amansızlığı ilə fərqlənir. Həmin qanlı tarixdə keçmiş sovet ordusunun 366-cı alayının dəstəyi ilə Xocalıya hücum çəkən ermənilər bir gecənin içində bütün şəhəri yerlə-yeksan ediblər. Xocalı faciəsi dünya tarixində dinc əhalinin kütləvi qətliamı kimi dərin iz qoymuş Xatın, Holokost, Sonqmi, Lidiçe, Babi Yar, Ruanda və Serebrenitsa kimi soyqırımları ilə bir sırada dayanır.

Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qalıb.

1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində Azərbaycana məxsus vertalyot ermənilər tərəfindən xaincəsinə vurulub. Bu terror aktı nəticəsində vertalyotda olan görkəmli Azərbaycan ziyalıları və dövlət xadimləri, ümumilikdə 22 nəfər həlak olub.

Dünyaya özlərini "mədəni və qəhrəman xalq" kimi sırımağa çalışan ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri belə müharibə cinayətlərinin siyahısı çox uzundur. Bu siyahıda Ballıqaya, Malıbəyli, Daşaltı və digər faciələrimiz də yer alır. Ermənilər sərhəd tanımayan müharibə cinayətlərini İkinci Qarabağ müharibəsi günlərində daha amansız şəkildə davam etdiriblər. Belə ki, döyüş meydanlarında sarsıdıcı məğlubiyyət acısı yaşayan düşmən bunun qisasını keçmiş təmas xəttindən uzaqda yerləşən Gəncəyə, Bərdəyə, Mingəçevirə Biləsuvara və digər ərazilərimizə qadağan olunmuş silahlardan atəş açmaqla almağa çalışıblar. Ancaq güclü Azərbaycan Ordusu təxribatlara uymayaraq ermənilərin cavabını bilavasitə döyüş meydanlarında verir və ədalətli müharibə aparırdı.

### Ağdaban qətliamı və Kəlbəcərin işğalı

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ermənilərin sərhəd tanımayan müharibə cinayətlərinin növbəti ünvanı Kəlbəcər rayonunun Ağdaban kəndi olub. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum ediblər. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarla örtülü meşələrə, dağlara qaçmaq məcburiyyətində qalıb. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırıblar. Kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilib, 67 nəfər qətlə yetirilib, 8 nəfər 90 -100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri yandırılıb. Həmçinin 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib, 5 nəfər isə girov götürülüb.



Faciənin ağır müsibətlərini yaşamış, evləri viran qoyulmuş ağdabanlılar doğma kəndlərini tərk etməyiblər. Onlar meşələrdən geri qayıdıblar və ev-eşiklərini bərpa edərək doğma yurd yerlərində yaşamağa başlayıblar. Lakin 1993-cü il mart ayının 27-də erməni separatçıları Kəlbəcər rayonuna hücum edən zaman yenidən Ağdaban kəndinə soxulublar. Beləliklə də, ağdabanlılar ikinci dəfə faciə yaşayıblar. Ağdabanın ikinci dəfə işğalı Kəlbəcərin tamamilə Ermənistan tərəfindən zəbt olunması demək idi. Bundan sonra Kəlbəcər hər tərəfdən mühasirəyə alınaraq 1993-cü il aprel ayının 2-dək erməni silahlı birləşmələri tərəfindən tamamilə işğal edildi.

Ağdaban faciəsi törədilmə spesifikasına və xarakterinə görə Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixdə qəbul olunmuş "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" Konvensiyanın müddəalarına tam uyğundur. Ona görə də bu faciə beynəlxalq hüquq əsasında soyqırımı cinayəti aktı kimi qiymətləndirilməli və Ağdaban kəndinin dinc əhalisinə qarşı törədilən bu qırğın soyqırımı cinayəti kimi dünya ictimaiyyəti tərəfindən tanınmalıdır.

### Qisas qiyamətə qalmadı

Düşmən nə qədər məkrli olsa da, faciələrimizin qisası qiyamətə qalmadı. Dövlətimiz, xalqımız işğal faktı ilə heç vaxt barışmadı. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunması məsələsi ölkə gündəliyinin mərkəzində saxlanıldı, lazımi hazırlıqlar görüldü, istənilən vəzifəni uğurla yerinə yetirməyə qadir olan müasir ordu formalaşdırıldı.

Nəhayət, 2020-ci il sentyabrın 27-də düşmənin keçmiş təmas xətti boyunca törətdiyi növbəti təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. 44 günlük Vətən müharibəsində Azərbaycan tarixi Qələbə qazanmaqla özünün ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etdi. 2023-cü il sentyabrın 19-20-də aparılan uğurlu antiterror əməliyyatının nəticələrinə uyğun olaraq isə Qarabağda separatizm yuvası dağıdıldı, suverenliyimiz tam bərpa olundu. Beləliklə də, Müzəffər Ordumuz Ağdaban, Xocalı və digər faciələrimizin qisasını bilavasitə döyüş meydanında almış oldu.

**Mübariz FEYİZLİ**




# Bakı WUF13-ə necə hazırlaşır?

## Müasir dövrdə şəhər nəqliyyatı: Reallıqlar və çağırışlar

*Mübariz ABDULLAYEV*

Hazırda nəqliyyat vasitələrinin sayının sürətlə artması fonunda uzun tıxacların yaranması dünyanın bütün iri şəhərlərində müşahidə edilir. Dünya Bankının araşdırmalarına görə, iri şəhərlərdə yol tıxaclarının iqtisadiyyata vurduğu zərər ÜDM-in 2-4 faizinə qədər yüksəlir. Bu reallıq şəraitində vəziyyətdən çıxış yolunun tapılması, bütövlükdə meqapolislərdə nəqliyyat məsələlərinin optimal həlli ən aktual qlobal çağırışlardan biri qismində çıxış edir.

Məsələ ilə bağlı paytaxtımızın mayın 17-22-də ev sahibliyi edəcəyi Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası (WUF13) çərçivəsində də müzakirələrin aparılması nəzərdə tutulur. WUF13-ə hazırlıq çərçivəsində nəqliyyat axınının təhlükəsiz və səmərəli idarə olunmasını təmin etmək məqsədilə müəyyən edilmiş marşrutlar üzrə nəqliyyat vasitələrinin hərəkəti monitorinq ediləcək. Bu barədə WUF13 Azərbaycan Əməliyyat Şirkətindən məlumat verilib.

**Beynəlxalq birliyin Azərbaycana artan inamı**

Qlobal iqlim sammitindən - COP29-dan sonra Ümumdünya Şəhərsalma Forumunun (WUF13) paytaxtımızda keçirilməsinə qərar verilməsi beynəlxalq birliyin ölkəmizə olan böyük inamının daha bir ifadəsidir. Azərbaycan uğurla inkişaf edən dövlətdir. Ölkəmizin böyük potensialı var. Həmçinin cəmiyyətimiz tolerantdır, burada milli-dini-irqi ayrı-seçkiliyin hər hansı bir formasına rast gəlinmir. Prezident İlham Əliyev daim o mövqedən çıxış edir ki, qlobal çağırışlar qarşısında beynəlxalq həmrəyliyi gücləndirmək lazımdır. Azərbaycanın timsalında bu, yalnız dünyaya bir mesaj deyil. Ölkəmiz xoş məramını ortaya qoymaqla və öz imkanlarını təqdim etməklə daim qlobal həmrəyliyin və əməkdaşlığın möhkəmlənməsinə sanballı töhfələr verir. İndiyədək respublikamız ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirlərdə - "Eurovision - 2012" mahnı müsabiqəsində, Birinci Avropa Oyunlarında, IV İslam Həmrəyliyi Oyunlarında, humanitar forumlarda və digər tədbirlərdə yüksək məsuliyyət nümayiş etdirib. Bakıda 2024-cü ilin noyabr ayında baş tutan COP29 bir sıra mühüm nəticələrlə yadda qaldı. Bütün bunların nəticəsi olaraq beynəlxalq ictimaiyyətdə Azərbaycana və onun Liderinə böyük rəğbət formalaşıb. Ölkəmiz dünyada dialoq məkanı kimi qəbul olunur.

WUF13 tədbirində isə dünyanın şəhərsalma problemləri Bakıda müzakirə olunacaq. Beynəlxalq səviyyədə bu tədbirə böyük maraq var. Tədbirdə iştirak üçün artıq 169 ölkədən təxminən 15 minə yaxın iştirakçı qeydiyyatdan keçib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13 üzrə milli koordinator Anar Quliyev bildirib ki, iştirakçıların təxminən 30 faizi yerli və regional idarəetmə orqanlarını təmsil edir.

**Dünya üçün nümunəvi şəhərsalma təcrübəsi**

Bakıda təşkil ediləcək Ümumdünya Şəhərsalma Forumu Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda ilk dəfə keçiriləcək. Bu, regionun artan əhəmiyyətini və qlobal şəhərsalma gündəliyinin formalaşmasında rolunu əks etdirir. Forumun əsas məqsədi milli təcrübələrin nümayiş etdirilməsi, bilik mübadiləsinin aparılması və mənzil problemlərinin həllində inklüziv şəhər inkişafını təşviq edən qabaqcıl beynəlxalq təcrübələri öyrənməkdir.

Bu tədbir Azərbaycana öz şəhərsalma təcrübəsini, mənzil təşəbbüslərini təqdim etmək və beynəlxalq əməkdaşlığı daha da gücləndirmək imkanı verəcək. Hazırda dünyada mənzil problemi ilə bağlı mənzərə heç də ürəkaçan deyil. Belə ki, 1,1 milyard insan gecəqondularda və qeyri-rəsmi yaşayış məntəqələrində yaşayır, 300 milyon insan evsizdir. Vəziyyət mühüm çağırışlar yaradır. Bu o deməkdir ki, dünya böyük investisiyalara və düzgün siyasi qərarlara ikiqat səylə yanaşmalıdır. Bu problem siyasət, investisiya, layihələndirmə və şəhər planlaşdırması sahələrində birgə qərarlar tələb edir. Böhran insan tərəfindən yaradılıb və buna görə də onun həlli də insan tərəfindən tapılmalıdır. Anar Quliyevin məlumatına görə, əhalinin mənzil ehtiyaclarına cavab vermək məqsədilə Azərbaycan 2016-cı ildə Mənzil İnşaatı Dövlət Agentliyi təsis edib. Dövlətin mənzil siyasətinin əsas istiqamətlərindən biri isə azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda ərazilərin bərpası və əhalinin köçürülməsidir.

Azərbaycanda şəhərsalma islahatları, xüsusilə də işğaldan zərər çəkmiş ərazilərdə yaşayış məntəqələrinin bərpası sahəsində qazandığı təcrübə beynəlxalq birlik üçün yaxşı nümunədir. 2024-cü ilin əvvəlində təqdim olunan Bakı şəhərinin Baş Planı ölkəmizin müasir şəhərsalma çağırışlarına yanaşmasını aydın şəkildə nümayiş etdirir. Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş Planında bir sıra mühüm prinsiplər əsas götürülüb. Baş Plan yaxın illər ərzində Bakı şəhərinin strateji inkişaf istiqamətlərini müəyyən edən əsas ərazi-planlaşdırma sənədidir. Təqdimatda bildirildiyi kimi, Baş Plana uyğun olaraq vahid mərkəzli aqlomerasiya olan Bakı növbəti inkişaf mərhələsində rahat, ekoloji cəhətdən təmiz, mobil, insanyönümlü və inklüziv çoxmərkəzli şəhərə çevriləcək. Baş Plan həmçinin ərazi zonalaşdırılması, əsaslı tikinti, nəqliyyat və sosial infrastruktur, kommunal sistemlər, eyni zamanda ərazilərin abadlaşdırılması tədbirləri, habelə postsənaye dövrünə keçidi təmin edəcək yeni şəhər iqtisadiyyatı məsələlərini özündə ehtiva edir. Bütövlükdə 4 vacib hədəfə əsaslanan Baş Plan paytaxtın 212,3 min hektarlıq bütün inzibati ərazisini əhatə etməklə 2040-cı ilədək olan müddət ərzində şəhərin əsas inkişaf perspektivlərini müəyyənləşdirir.

Bu gün həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə reallaşdırdığı bərpa modelini fəxrlə təqdim etmək mümkündür. Bu model dayanıqlılıq, ərazi reinteqrasiyası və insanyönümlü inkişaf prinsiplərinə əsaslanır. Qarabağ və Şərqi Zəngəzurdakı şəhər və kənd icmaları üçün kompleks Baş planlar hazırlanıb və həyata keçirilir. Bu planlar sadəcə texniki sənədlər deyil - həyatların yenidən qurulması üçün yol xəritəsidir. Regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Bütövlükdə, Ermənistanın işğal etdiyi və otuz il ərzində viran qoyduğu ərazilərimizdə 44 günlük Vətən müharibəsindəki Zəfərin ardınca innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirir. "Böyük Qayıdış"a dair I Dövlət Proqramına müvafiq qaydada "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə - dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə - 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanıb və quruculuq işlərinə başlanıb.

**Ölkəmizdə nəqliyyat məsələlərinə həssas yanaşma**

Müasir dövlət kimi inkişaf edən Azərbaycan aktuallığı getdikcə artan nəqliyyat məsələlərinə həssas yanaşma sərgiləyir. Təkcə son vaxtlarda paytaxt Bakıda nəqliyyat sıxlığının azaldılmasını hədəfləyən çoxsaylı infrastruktur layihələri reallaşdırılıb və proses hazırda da davam etdirlir.

Eyni zamanda, əhaliyə göstərilən nəqliyyat xidmətinin keyfiyyətini və səmərəliliyini artırmaq məqsədilə islahatlar aparılır. İslahatların davamı olaraq Prezident İlham Əliyev 2025-ci il 19 sentyabr tarixində "Avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" fərman imzalayıb. Sənədə əsasən bu sahədə əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi, qabaqcıl beynəlxalq tələblər və təcrübə nəzərə alınmaqla ictimai nəqliyyat daşıyıcılarının fəaliyyətinin səmərəli təşkili məqsədilə dövlət büdcəsinin tərkibində "İctimai nəqliyyat" Məqsədli Büdcə Fondunun yaradılması qərara alınıb.

Fərmanla Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Xankəndi şəhərlərinin və Abşeron, Ağdam, Şuşa, Laçın rayonlarının inzibati ərazilərində nağdsız ödəniş sisteminə keçirilən nəqliyyat vasitələri ilə müntəzəm sərnişin daşınmalarını gerçəkləşdirən hüquqi şəxslərə və ya fərdi sahibkarlara sıxılmış təbii qaz və elektrikli avtobuslara görə subsidiya ödənilməsi nəzərdə tutulur. Sözügedən fərmana əsasən yaxın perspektivdə ölkənin nəqliyyat sahəsində yeni qaydalar tətbiq edilməklə məsafə əsaslı avtomobil nəqliyyatı xidməti işə düşəcək, Bakıda isə ödənişli hərəkət zonaları yaradılacaq. Bu dəyişikliklər həm yol hərəkətinin idarə olunmasına, həm də paytaxtda sıxlığın azaldılmasına xidmət edəcək. Paytaxtımızda elektriklə işləyən ictimai nəqliyyat parkının genişləndirilməsi həmçinin zərərli qaz emissiyalarının azalmasına və şəhərin ekoloji mühitinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərəcək. Bunun üçün bir sıra təşviq tədbirləri də nəzərdə tutulur.

**Nəqliyyat vasitələrinin monitorinqi hansı əraziləri əhatə edəcək?**

Verilən məlumata görə, WUF13 Azərbaycan Əməliyyat Şirkəti və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə həyata keçiriləcək monitorinq çərçivəsində aprelin 11-dən 12-nə keçən gecə Bakı şəhərinin bir sıra küçə və prospektlərində hərəkətin müvəqqəti məhdudlaşdırılması nəzərdə tutulur.

Monitorinq Bakı Kristal Zalı, "Fairmont Baku Flame Towers", "Four Seasons Hotel Baku", "JW Marriott Absheron Baku", "The Ritz-Carlton", Heydər Əliyev Beynəlxalq Aeroportu və tədbir məkanı olan Bakı Olimpiya Stadionu istiqamətlərini əhatə edəcək.

Sürücülərdən və digər yol hərəkəti iştirakçılarından göstərilən tarixdə hərəkətlərini əvvəlcədən planlaşdırmaları, qeyd olunan istiqamətlər üzrə mümkün sıxlığı nəzərə almaları və alternativ yollardan istifadə etmələri xahiş olunur.

Məhdudiyyətlərin tətbiq olunacağı dəqiq ərazilər və digər məlumatlar növbəti mərhələdə ictimaiyyətə təqdim olunacaq.

Qeyd edək ki, WUF13 öncəsi keçirilən nəqliyyat vasitələrinin hərəkətinin monitorinqi son 10 il ərzində Azərbaycanda keçirilən bir sıra qlobal tədbirlərə hazırlıq çərçivəsində də tətbiq olunub və uğurla həyata keçirilib.

# BMT-də islahatlar başlayır...

## Təşkilatın 40 min mandatı yenidən nəzərdən keçiriləcək

*Nardar BAYRAMLI*

"BMT - 80" təşəbbüsü çərçivəsində Birləşmiş Millətlər Təşkilatı sisteminin islahatı yeni bir mərhələyə qədəm qoyur - problemlərin "diaqnozundan" praktik dəyişikliklərin həyata keçirilməsinə keçid prosesi başlayır. Baş Assambleyanın prezidenti Annalena Berbok bu barədə açıqlamanı aprelin 6-da Nyu-Yorkda Baş Assambleyanın qeyri-rəsmi iclasında çıxış edərkən verib. Onun sözlərinə görə, təşəbbüsün başlanmasından bir il sonra artıq əhəmiyyətli irəliləyişlər müşahidə olunur. Xüsusilə, mandatların yaradılması, tətbiqi və nəzərdən keçirilməsi ilə bağlı ötən həftə əsas qətnamənin qəbul edilməsi əhəmiyyətli bir addım olub.

**BMT mandatlarının bəziləri köhnəlib**

BMT-nin mövcud olduğu 80 ildən çox müddət ərzində 40 mindən çox mandat yaradılıb. Lakin bunlardan bəziləri köhnəlib, təkrarlanıb və ya istifadə edilmir. "Bu, sadəcə inzibati islahatla bağlı deyil, BMT resurslarının müasir prioritetlərə və ehtiyaclara uyğunlaşdırılmasını təmin etməklə əlaqəlidir", - deyən Berbok üzv dövlətlərə bu prosesdə fəal iştiraklarına görə minnətdarlığını bildirib. O, həmçinin xatırladıb ki, mandat icmalı üzrə xüsusi işçi qrupunun iki həmsədri tezliklə təyin olunacaq və 1 may 2026-cı il tarixinə qədər işlərini bərpa edəcəklər. Baş Assambleya sədrinin sözlərinə görə, mandatların nəzərdən keçirilməsi prosesi artıq BMT sistemində səylərin təkrarlanmasını aradan qaldırır və onların təsnifatını müəyyən edir, daha dərin struktur və proqram islahatlarına yol açır.

Tədbirdə, həmçinin BMT Qadınları və Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun (UNFPA) birləşdirilməsi ehtimalı, eləcə də texnologiyanın inkişafı və məlumatların istifadəsi ilə bağlı məsələlər müzakirə edilib. Berbok vurğulayıb ki, "BMT-80" təşəbbüsü ilə bağlı qarşıdan gələn hərtərəfli hesabat islahatlara əlavə təkan verə, həm onların tempini sürətləndirə, həm də əsas məzmununu təkmilləşdirə bilər. O, təşkilata üzv dövlətləri prosesdə fəal və konstruktiv iştiraklarını davam etdirməyə çağırıb.

**Beynəlxalq güclərin inhisarında olan təşkilat**

Ümumiyyətlə, BMT strukturlarında islahatların aparılması məsələsi uzun müddətdir ki, dünya ölkələrinin gündəmindədir. Xüsusilə, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. Bu zərurəti BMT-nin Baş katibi Antonio Quterreş də etiraf edib. Baş katib rəhbərlik etdiyi təşkilatın modernləşdirilməsinə davam edən təkanların bir hissəsi olaraq, BMT-nin effektiv, qənaətcil və xidmət etdiyi insanlara cavabdeh olmasını təmin etmək məqsədilə islahatlara üstünlük verdiyini deyib. O, həmçinin Baş Assambleya sədrinin rəhbərliyi altında əldə edilmiş irəliləyişlə bağlı bütün üzv dövlətlərlə yaxından və müntəzəm olaraq məsləhətləşmələr apararaq irəliyə doğru istiqamət götürmək və konkret təkliflər təqdim etməyi öhdəsinə götürüb. Quterreş əlavə edib: "Mənim məqsədim səlahiyyətlərimə aid olan sahələrdə mümkün qədər tez hərəkət etmək və üzv dövlətləri özlərindən asılı olan bir çox qərarları nəzərdən keçirməyə çağırmaqdır. Hazırda BMT-nin fəaliyyətinə ehtiyac böyükdür və məqsəd aydındır: insanlara xidmət edən və XXI əsrə uyğunlaşdırılmış daha güclü və daha effektiv Birləşmiş Millətlər Təşkilatı formalaşdırmaq".

BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma 5 daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri



vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur.

**"Dünya beşdən böyükdür" çağırışına Azərbaycandan dəstək**

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından "Dünya beşdən böyükdür!", - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. "Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil", - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib. Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan meyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda daimi təmsilçiliyinin vacibliyini vurğulayıb.

Artıq dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur.

# İlk 3 ayda...

## Büdcə gəlirləri artıb, 1,8 milyard manata yaxın profisit yaranıb

2026-cı ilin birinci rübündə dövlət büdcəsi gəlirlərinin icrasında yüksək nəticələr qeydə alınıb. Belə ki, yanvar-mart ayları ərzində dövlət büdcəsinin gəlirləri 9 milyard 599 milyon manat təşkil edib ki, bu da proqnozu 458,9 milyon manat və ya 5 faiz üstələyib. Dövr ərzində dövlət büdcəsinin xərcləri 8 milyard 012,5 milyon manat proqnoza qarşı 7 milyard 817,1 milyon manat məbləğində icra edilib ki, bu da 97,6 faiz təşkil edir. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 265 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Nəticədə dövlət büdcəsində 1 milyard 781,9 milyon manat profisit (illik müqayisədə 10,1 faiz çox) yaranıb.

2026-cı ilin birinci rübü ərzində icmal büdcənin gəlirləri 8 milyard 852,6 milyon manat, xərcləri isə 9 milyard 43,6 milyon manat məbləğində icra edilib.

**Büdcədən 68,5 milyon manat geri qaytarılıb**

Cari ilin ilk rübündə dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 68 milyon 508,8 min manat məbləğində vəsait geri qaytarılıb. Həmin vəsaitlər əsasən fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə sahəsində aldıqları mallara, mədəniyyət (teatr, kino, muzey, konsert), tibbi xidmətlərə, o cümlədən işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılmasına aiddir.










Bununla yanaşı, əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları da geri qaytarılıb.

Mövcud büdcə göstəriciləri onu təsdiqləyir ki, ölkəmizdə iqtisadi fəallıq artır və bu dinamika fiskal yığımlarda özünün bariz ifadəsini tapır. Neftin bahalaşması ilə yanaşı, qeyri-neft yığım mənbələrinin genişlənməsi büdcədə potensial imkanları artırır. Eyni zamanda, büdcə göstəriciləri növbəti rüblərdə də yığım faizinin artacağını və büdcə zərfinin profisitlə icra olunacağını şərtləndirir.

Dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun proqnoz göstəricisinin cari il üzrə artırılması da qarşıdakı 9 ayda əsas fiskal bazanın qeyri-neftə əsaslanacağından xəbər verir. Belə ki, büdcə gəlirlərinin 57,4 faizi və ya 22,174 milyon manatı qeyri neft-qaz sektorunun, 42,6 faizi və ya 16,435 milyon manatı isə neft-qaz sektorunun payına düşür. Eyni zamanda, büdcədə vergi daxilolmalarının 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq. Ümumilikdə, ötən ilin dövlət büdcəsinin proqnoz göstəricisi ilə müqayisədə qeyri neft-qaz sektorunun gəlirləri 2 milyard 129 milyon manat və ya 10,6 faiz çox nəzərdə tutulur ki, bu da son 20 ildə ən yüksək fiskal rəqəmdir.

**Büdcədə əsas xərc prioritetləri**

Xatırladaq ki, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsinin kəsiri isə 3 milyard 94,6 milyon manat proqnozlaşdırılır ki, bu ÜDM-in cəmi 2,3 faizi həcmindədir. Növbəti il üçün icmal büdcənin gəlirləri 1 milyard 18,8 milyon manat artaraq 44 milyard 969,4 milyon manat, xərcləri isə 1 milyard 209,9 milyon manat artaraq 48 milyard 839,3 milyon manat, kəsiri isə 3 milyard 870 milyon manat məbləğində müəyyən olunub. 2026-cı ilin büdcə zərfi ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. Ölkəmizin ali maliyyə sənədi olan büdcə layihəsi möhkəm konsolidasiya, fiskal dayanıqlılıq, keyfiyyət dəyişikliklərinə keçid və digər amilləri özündə əks etdirir. Büdcə çərçivəsi sənədlərində əks olunan əsas məqsədlər, o cümlədən Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının icrası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, iqtisadiyyatın digər sahələri üzrə qəbul edilmiş strategiya və dövlət proqramlarının icrası üçün maliyyə təminatının yaradılması ortamüddətli büdcə dövrü üçün öz aktuallığını qorumaqdadır.

Dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin təqribən 21 faizini təşkil etməklə 8,7 milyard manat həcmində nəzərdə tutulub.

Böyük Qayıdış Proqramının icrası, ölkəmizin təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-tranzit infrastrukturunun dəstəklənməsi və bütün bunların sosial müdafiə tədbirləri ilə müşayiət edilməsi yeni büdcə sənədinin əsas xüsusiyyətlərindəndir. Büdcə zərfi həm də maliyyə təhlükəsizliyinin gücləndirilməsini, o cümlədən valyuta ehtiyatlarımızın qorunmasını hədəfləyir. Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb.

**Əmək pensiyaları üçün 8 milyard manat**

Əhalinin real gəlirlərinin artımı və sosial rifahının yaxşılaşması üçün 2026-cı ilin dövlət büdcəsində sosialyönlü xərclər 17,1 milyard proqnozlaşdırılıb. Bu, da ümumi büdcə xərclərinin 41 faizini təşkil edir. Sosial xərclərin əsas mənbələrindən biri kimi icmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2026-cı il üzrə büdcəsində də əhəmiyyətli artımlar mövcuddur. Belə ki, DSMF-nin 2026-cı il üçün gəlirləri cari ildəkindən 9,3 faiz, xərcləri isə 10,5 faiz çox nəzərdə tutulub. DSMF-nin büdcə xərcləri ilk növbədə, şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alanların, təqaüdçülərin, ümumilikdə ölkə vətəndaşlarının sosial rifahının daha da yaxşılaşdırılması üçün etibarlı təminat yaradır. Həmin təminat mənbələri nəzərə alınaraq 2026-cı il yanvarın 1-dən bütün pensiyalar indeksləşdirilib. Əmək pensiyaları üçün 8 milyard manata yaxın vəsait nəzərdə tutulub. Mövcud artımlardan sonra Azərbaycanda orta aylıq pensiya məbləğinin 543 manatdan bu il 590 manatadək, yaşa görə pensiyanın isə 578 manatdan 629-630 manatadək yüksələcəyi proqnozlaşdırılır.

Göründüyü kimi, həyata keçirilən ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etməkdədir.

**Neftin bahalaşması büdcəyə dəyişikliklərə səbəb ola bilər**

Yeri gəlmişkən, neftin qiymətinin artması hazırda büdcə üçün əlavə imkanları da səfərbər edir. Cari ildə büdcədə neftin qiyməti 65 dollar götürülüb. Hazırda isə dünya bazarında Azərbaycan neftinin hər bareli 115 dollardan baha satılır. Təbii ki, illik orta qiyməti bir neçə günlük və ya həftəlik, hətta aylıq qiymətlər ilə müqayisə etmək olmaz. Söhbət illik orta qiymətdən gedir. Ancaq buna baxmayaraq, "Azeri Light" markalı Azərbaycan neftinin mart ayındakı satış qiyməti ən azı 1 milyard dollar əlavə gəlir qazandırıb. Neftin orta illik qiymətinin növbəti aylarda da yüksək olacağı halda neft və qaz sektorundan büdcəyə daha çox vəsait daxil olacaq. Nəzərdə tutulandan daha çox daxilolmalar isə profisiti artırmaqla, büdcə xərclərinin həcminin də artırılması üçün əsaslı baza yarada bilər. Bu isə ilin ortasında dövlət büdcəsi layihəsinə yenidən dəyişikliklərə səbəb ola bilər. Belə bir praktika ötən illərdə dəfələrlə dövlət büdcəsi haqqında qanunda dəyişikliklərin təthiqində öz təsdiqini tapıb. Büdcə layihəsinə dəyişikliklər edildiyi halda, yəni xərclərin artırılması reallaşdığı təqdirdə, əlavə xərclər ilk növbədə, azad ərazilərdə aparılan quruculuq işlərinin sürətləndirilməsinə yönəldiləcək, Bununla bərabər, bəzi sosial xərclərin artırılması da mümkün ola bilər.

***E.CƏFƏRLİ***

# Sığorta bazarı kiçilsə də...

## İki ay ərzində 10 şirkətin yığımları artıb

2026-cı ilin yanvar-fevral aylarında Azərbaycanda fəaliyyət göstərən 16 sığorta şirkətinin toplam yığımları 277,5 milyon manat təşkil edib. Mərkəzi Bankın (MB) məlumatına əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz azdır.

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 148,8 milyon manat təşkil edib. Bu, illik müqayisədə 37 faiz çoxdur. Belə ki, 2 ayda sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 53,6 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə isə bu göstərici 38,6 manat olub.

Sığorta yığımlarında ümumi cüzi azalmanın baş verməsinə baxmayaraq, bazarda güclü mövqe tutan aparıcı sığorta şirkətlərin portfelində azalmalar olmayıb. Belə ki, 16 şirkətin 10-u 2 ay ərzində öz yığımlarını daha da artırıb. Faiz artımına görə "Meqa Həyat Sığorta" ASC 66,8 faizlik göstərici ilə bazarda liderlik edir. Şirkətin yığımlarında 1 milyon 726 min manat artım qeydə alınıb. Məbləğ baxımından ən böyük artım isə "Aqrar Sığorta" ASC-də qeydə alınıb. Bu şirkətin topladığı sığorta haqları ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 803 min manat artıb. Hesabat dövründə "Azərbaycan Sənaye Sığorta Şirkəti" ASC, "Xalq Həyat Sığorta Şirkəti" ASC, "Xalq Sığorta", "Paşa Sığorta", "Atəşgah Həyat Sığorta Şirkəti", "AzSığorta", "İpək Yolu Sığorta" və "Paşa Həyat Sığorta" ASC də yığımlarını artırmağa nail olub.

**İcbari sığorta yığımları 29,4 faiz azalıb**

Sığorta şirkətlərinin yığımlarındakı artımlara baxmayaraq, bir sıra sığorta növləri üzrə azalmalar qeydə alınıb. Belə ki, yanvar-fevral aylarında icbari sığorta növlərinin hesabına 43,126 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 29,4 faiz azdır. Hesabat dövründə icbari sığorta növləri üzrə aparılan ödənişlərin məbləği isə 27,028 milyon manat təşkil edib. Belə ki, sığorta bazarından toplanmış hər 100 manat sığorta haqqının 62,7 manatı qədər ödəniş edilib. Qeyd edək ki, iki ay ərzində ümumilikdə, sığorta şirkətlərinin xətti ilə 277,562 milyon manat sığorta haqqı toplanılıb. Sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 148,8 milyon manat təşkil edib. Sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 53,6 manatı ödəniş edilib.

Göründüyü kimi, sığorta yığımları portfelində artım qeydə alınsa da, icbari sığorta üzrə yığımlarda azalma baş verib.

Qeyri-həyat sığortası növlərinin hesabına isə 148,332 milyon manat sığorta haqqı toplanılıb. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz azdır. Ancaq qeyri-həyat sığortası növləri üzrə ödənişlər isə 25 faiz artaraq 47,664 milyon manata çatıb.

**Könüllü tibbi sığorta üzrə yığımlarda da azalma baş verib**

Könüllü tibbi sığorta üzrə yığımlarda da azalmalar qeydə alınıb. Belə ki, həmin sığorta üzrə 65 milyon 766 min manat sığorta haqqı toplanıb ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 2 milyon 182 min manat və ya 3,2 faiz azdır. 2025-ci ilin eyni dövründə bu göstərici 67 milyon 948 min manat təşkil etmişdi. Ancaq yığımlar azalsa da, tibbi sığorta üzrə ödənişlərdə artım baş verib. İlin ilk 2 ayında adıçəkilən sığorta üzrə ödənişlər 13 milyon 879 min manat təşkil edib ki, bu da illik müqayisədə 2 milyon 393 min manat və ya 20,8 faiz çoxdur. Bu isə tibbi sığortanın şərti zərərliliyini yüksəldib. Ötən ilin 2 ayında zərərlilik 16 faiz olduğu halda, hazırda 21,1 faizə yüksəlib. Biz sözlə, tibbi sığortadan toplanan hər 6 manatdan 1 manatı müştərilərə ödənilirdisə, indi 5 manatdan 1 manatı ödəniş edilir.

Həmçinin, avtonəqliyyat vasitələrinin sığortası (KASKO) üzrə də azalma baş verib. Sığorta şirkətləri yanvar-fevral ayları ərzində toplam 10 milyon 254 min manat sığorta haqqı toplayıb ki, bu da 2025-ci ilin yanvar-fevral ayları ilə müqayisədə 11,6 faiz və ya 1 milyon 349 min manat azalma deməkdir. Bu dövrdə avtonəqliyyat vasitələrinin sığortası üzrə ödənişlərinin həcmi 5 milyon 729 min manat olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 22,9 faiz və ya 1 milyon 68 min manat çoxdur. 2025-ci ilin yanvar-fevral aylarında bu sığorta növü üzrə ödənişlərin həcmi 4 milyon 661 min manata bərabər olub.




**Əmlak və həyat sığortasında yüksək artım**

Buna baxmayaraq, bəzi sığorta növlərində artımlar baş verib. Məsələn, əmlak sığortası bazarı 19 faizə yaxın böyüyüb. Həmin sahədən 47,878 milyon manat sığorta haqqı toplanılıb. Hesabat dövründə əmlak sığortası üzrə ödənişlərin məbləği isə 6,754 milyon manat təşkil edib. Bu isə 1 il əvvələ nisbətən 12,1 faiz çoxdur. 2 ayda əmlak sığortası üzrə toplanmış hər 100 manat sığorta haqqının 14,1 manatı ödəniş edilib. Bu göstərici 1 il bundan əvvəl 15 manat olub.

Həyat sığortası növlərinin hesabına isə 129,231 milyon manat sığorta haqqı toplanılıb. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Həyat sığortası növləri üzrə ödənişlər isə 43,5 faiz artaraq 101,136 milyon manata çatıb. Toplanmış hər 100 manat sığorta haqqının 78,3 manatı müştərilərə geri ödənilib.

Ümumiyyətlə, sığorta bazarı ötən 2 ayda əsasən, könüllü sığorta növləri hesabına böyüyüb. Bu bzaradan 234,436 milyon manat sığorta haqqı toplanılıb ki, ötən ilin 2 ayı ilə nisbətdə 6,5 faiz çoxdur.

**Daşqın və subasma halları ilə sığorta ödənişləri**

Yeri gəlmişkən, son günlər Azərbaycanın müxtəlif bölgələrində güclü yağışlar nəticəsində çoxsaylı sel-subasma hadisələrinin qeydə alınması sığorta hadisəsi ilə bağlı məsələni daha da aktuallaşdırır. Xüsusilə də güclü yağışların əkin sahələrinə ziyan vurması aqrar sığorta sahəsində zəruri ödənişləri labüd edir. Aqrar sahədə çalışan mülkiyyətçilərin və fermerlərin sığorta şirkətlərinə, o cümlədən Aqrar Sığorta Fonduna müraciətlərinin artması da bunu təsdiqləyir. Fonda daxil olan müraciətlərin təhlilinə əsasən, güclü yağışlar və daşqınlar 2100 hektara yaxın əkin sahəsinə zərər vurub, sığorta ödənişi barədə araşdırmalar davam etdirilir.

Müvafiq qaydalara əsasən, subasma hallarının təsərrüfatlara vurduğu ciddi zərərlərə görə, fermerlər aqrar sığorta mexanizmi vasitəsilə təmin edilməlidir. Ancaq son günlər aparılan müşahidələr onu göstərir ki, yerli fermerlər risklərdən qorunmaq üçün əkin sahələrini sığortalamadıqlarından həmin mexanizmdən faydalana bilmirlər. Məlumat üçün qeyd edək ki, Aqrar Sığorta Fondu bitkiçilik, heyvandarlıq və balıqçılıq təsərrüfatlarını sığortalayır. Fermerlərə dəstək məqsədilə sığorta haqqının yarısını dövlət ödəyir, nəticədə cüzi məbləğlə təsərrüfatları və əkin sahələrini sığortalamaq mümkün olur. Aqrar sığorta ekspertlərinin məlumatına görə, sığorta edilmiş hər bir təsərrüfat dəymiş zərərə görə, sığorta ödənişi ilə təmin olunur. Bir sıra hallarda mülkiyyətçilərin təsərrüfatlarını sığorta etməməsi hazırkı kritik hadisələr zamanı aqrar sığortadan istifadəni çətinləşdirir.

**Yaşayış evləri və obyektlərin sahibləri subasmaya görə, sığorta pulu ala bilərlər**

Yeri gəlmişkən, leysan yağışlar nəticəsində yaşayış evləri və obyektləri subasma nəticəsində zərər görən vətəndaşlar və sahibkarlar evlərini və obyektlərini sığorta etdirməklə dəyən zərərlərə görə, sığorta haqqı ala bilərlər. Eləcə də, intensiv yağışlar magistral yollarda sürücülər üçün ciddi problemlər yaradıb və maddi zərərlərə səbəb olub. Yol örtüyünün yararsız vəziyyətə düşməsi nəticəsində yaranan dərin çuxurlar nəqliyyat vasitələrinin zədələnməsinə səbəb olub. Həmçinin yağışlar nəticəsində hasarın aşması yaxınlıqda park edilmiş avtomobillərə ciddi ziyan dəyib. Belə hallarda dəymiş maddi ziyanı avtomobilin kasko sığortası varsa, zərəri kasko şirkəti ödəyəcək. Burada isə əsas məqam kasko sığortasının olmasıdır. Əgər həmin sığorta növü varsa, sürücü sığorta pulunu alacaq. Kasko sığortası edən şirkət isə müştərisinə dəyən ziyanı ödədikdən sonra, məhkəmə qaydasında həmin hasarı quraşdıran, əraziyə cavabdeh olan və təhlükəsizliyi təmin etmək öhdəliyi daşıyan dövlət orqanını və ya qurumu məhkəməyə verərək öz zərərini qarşılamaq hüququna malikdir. Təbii, kasko yoxdursa, sürücülər üçün sığorta pulu da ödənilməyəcək.

***E.CƏFƏRLİ***

# Danışıqlar yeni mərhələdə...

## İran növbəti dəfə "sülh planı" irəli sürdü - bu dəfə 10 maddəlik

Yaxın Şərqdə müharibənin yekunlaşması üçün danışıqlar prosesi davam etməkdədir. Yayılan xəbərlərə görə, Pakistan, Türkiyə və Misir vasitəsilə dolayısı ilə aparılan prosesdə tərəflər fərqli "sülh şərtləri" irəli sürürlər. Son olaraq aprelin 6-da Pakistanın tərəflərə təqdim etdiyi sülh şərtləri də qəbul edilməyib. Daha doğrusu, İran bu dəfə müharibəyə son qoymaq məqsədilə hazırladığı 10 bənddən ibarət planı Pakistan vasitəçiləri ilə ABŞ-yə təqdim edib. "The New York Times" ın məlumatına görə, rəsmi Tehran hücum edilməməsi barədə zəmanət, sanksiyaların tamamilə ləğvini və regiondakı müttəfiq qruplaşmalara qarşı zərbələrin dayandırılmasını tələb edir. Şərtlər arasında dağıdılmış infrastrukturun bərpası üçün təzminat ödənilməsi də yer alıb. Bunun müqabilində İran Hörmüz boğazını gəmilərin keçidi üçün açmağa hazır olduğunu bildirib. Lakin təklifdə hər bir gəminin keçidi üçün təxminən 2 milyon dollar rüsum ödənilməsi qeyd olunub. İddia edilir ki, toplanan vəsaitin bir hissəsinin infrastrukturun bərpasına yönəldilməsi planlaşdırılır.



**İslamabad şərti qəbul edilmədi...**

Məlumatda o da bildirilir ki, İran 45 günlük atəşkəsin də tərəfdarı deyil - Tehran daha çox uzunmüddətli sülh sazişinin vacibliyində israr edir. Xarici media Tehranın bu davranışını güvənsizliklə əlaqələndirirlər - onlar iddia edirlər ki, zəmanətin olmaması müvəqqəti atəşkəsin pozulması halında Tehran üçün kritik vəziyyət yarada bilər. Halbuki Pakistanın təklif etdiyi "İslamabad şərtləri"ndə tərəflərə daha geniş bir razılaşma barədə razılığa gəlmək üçün 15-20 gün vaxt verilməsi nəzərdə tutulurdu. Çərçivə razılaşması rolunu oynayacaq olan sənəd iki mərhələli yanaşmanı nəzərdə tuturdu və ikinci mərhələdə hərtərəfli razılaşmanın əldə edilməsini təklif edirdi.

**İranın yeni iddiası - "Hizbullah"...**

Yeni təklif olunan planda İranın "Hizbullah" kimi müttəfiq qruplarına qarşı hücumların dayandırılması da yer alır. Qeyd edək ki, hələ ilin əvvəlində Omanda və Cenevrdə keçirilən görüşlərdə ABŞ-ın İran qarşısına qoyduğu şərtlərdən biri "proksi" qüvvələrin maliyyələşdirilməsinin dayandırılması idi. Tehran isə bu şərti də qəbul etməmişdi - siyasi təhlilçilər İranın bu addımını bölgədə siyasi nüfuzunu qoruması üçün atdığını bildirirlər. Uzun on illiklər ərzində İranın ətrfaında formalaşdırdığı "hilal" təxminən bir neçə ildir ki, yox olmaq təhlükəsi yaşayır. İraqda İrana yaxın qüvvələrin siyasi səhnədən kənarlaşması, Suriyada Əsəd rejiminin devrilməsi (bu rejim uzun illər Yaxın Şərqdə İranın ən yaxın müttəifqi olub), HƏMAS-ın çökdürülməsi, paralel olaraq "Hizbullaha" qarşı müqavimətin şiddətləndirilməsi Tehranın ətrafında yaratdığ təhlükəsizlik xəttinin yarılması ilə nəticələnib. Siyasi analitiklər bildirirlər ki, indiki halda İranın əlindəki əsas rıçaqlar məhz Hörmüz boğazı, "proksi qüvvələr" və onu dəstəkləyən güclərə arxalanmasıdır. İrəli sürülən 10 maddəlik yeni plana nəzər saldıqda da bu bəlli olur - Tehran qarşı tərəfin əsas tələbləri olan nüvənin zənginləşdirilməsinin yolverilməzliyi və ya raket sistemləri ilə bağlı heç bir məsələni müzakirəyə çıxarmaq istəmir. Bildirilir ki, İran ilk mərhələdə sülhü imzalayıb, sonradan məhz bərabərhüquqlu tərəflər kimi masa arxasında sözügedən bəndləri müzakirə etmək fikrindədir. Tehran üçün indiki halda nüvə, "proksi qüvvə" və ya raket sistemləri kimi məsələləri müzakirə etmək "məğlub" durumun göstəricisi sayılır.

**Hörmüzdə "Panama" nümunəsi...**

O ki qaldı, Hörmüz boğazı ilə bağlı ortaya çıxan yeni situasiyaya, bunun da səbəbləri fərqli istiqamətlərdə izah olunur. Qeyd edək ki, İran 28 fevralda başlayan müharibənin ilk günlərindən bəri Hörmüz boğazını bağlayıb. Lakin İran xəbər agentliyi "Tasnim"in məlumatına görə, aprelin 4-dən etibarən ölkə hakimiyyəti humanitar yardım daşıyan gəmilərin Hörmüz boğazından keçməsinə icazə verib. İran martın 25-də bəzi ölkələrin - Rusiya, Çin, Pakistan, Hindistan və İraqdan olan gəmilərin boğazdan keçməsinə icazə vermişdi. Xatırladaq ki, sülh dövründə dünya dəniz neft ticarətinin təxminən 25 faizi Hörmüz boğazından keçirdi.

İranın Hörmüzdən keçəcək gəmilərdən rüsum tələbi isə ortaya bəzi suallar çıxarıb. Qərb politoloqları Tehranın "Panama nümunəsi"nə istinad etdiyini deyirlər. Xatırladaq ki, bir müddət öncə Panama kanalında ABŞ ilə adıçəkilən logistik dəhlizin məxsus olduğu dövlət arasında narazılıqlar yaranmışdı. Donald Tramp Panama kanalından keçmək üçün "gülməli dərəcədə yüksək tariflərdən" şikayət etmişdi və onu ABŞ-ın nəzarətinə qaytarmaqla hədələmişdi. Panama prezidenti Xose Raul Mulino Amerika prezidentinin təhdidlərinə cavab olaraq bildirib ki, kanalın hər metri Panamaya məxsusdur. Nəticədə əldə olunan razılaşmaya görə, ABŞ gəmiləri Panama kanalından heç bir ödəniş etmədən keçə bilir və bu da ABŞ hökuməti üçün ildə milyonlarla dollar qənaət deməkdir. İranın da məhz bu situasiyaya yaxın bir vəziyyət yaratması ehtimalı iddia edilir - təklif olunan rüsum ABŞ-a aid olmaya da bilər. Başqa sözlə, bir müddət öncə də xarici mediada bildirildiyi kimi, ABŞ ilə İran Hörmüz üzərindən ortaq maraqlara əsaslanan iqtisadi "ortaqlıq" belə qura bilərlər. Nəzərə alsaq ki, ABŞ-ın əsas iddiası qlobal enerji təminatına təsir etmək imkanlarını əldə etmək kimi xarakterizə olunur - belə halda, dünya neftinin dörddə birini nəzarət altında saxlamaq ciddi təsir bağışlaya bilər. Hətta İran bu yolla milyardlar qazansa belə.

**ABŞ razı deyil...**

Beləliklə, danışıqlar prosesinin yeni mərhələdə belə uğur qazanması ehtimalı aşağı qiymətləndirilir. ABŞ-ın irəli sürülən təkliflərə "hə" deyəcəyi inandırıcı görünmür - hətta ABŞ prezidentinin bu "şərt mübadiləsini" mənfi qarşıladığı da ilk baxışdan bəlli olur. Təsadüfi deyil ki, hələ ilk mübadilə dövründə ABŞ Prezidenti Donald Tramp İrana xəbərdarlıq edərək bildirmişdi ki, əgər rəsmi Tehran razılığa gəlməsə və ya Hörmüz boğazını açmasa, 48 saatdan sonra ölkəni "həqiqi cəhənnəm" gözləyir. Tramp bu barədə özünə məxsus "Truth Social" şəbəkəsində paylaşım etmiş, Tehran administrasiyasına qarşı kəskin ifadələr işlətmişdi: "İrana saziş bağlamaq və ya Hörmüz boğazını açmaq üçün 10 gün vaxt verdiyimi xatırlayırsınızmı? Vaxt daralır - onların üzərinə həqiqi cəhənnəm çökməsinə cəmi 48 saat qalıb".

Bu dəfə də münasibət fərqli olmayıb. Donald Tramp yeni şərtlər haqqında danışıb - o bildirib ki, Tehran Vaşinqtona münaqişənin həlli üçün "əhəmiyyətli təklif" təqdim edib, lakin ABŞ bunu qeyri-kafi hesab edir. Onun sözlərinə görə, İran tərəfi həqiqətən də Vaşinqtonun əhəmiyyətli addım hesab etdiyi bir təşəbbüs irəli sürüb. Lakin siyasətçi dərhal bu təklifin Amerika tərəfini tam qane etmədiyini vurğulayıb.

***P.İSMAYILOV***

# Rusiya qazın qiymətini qaldırsa....

## Ermənistan buna inanmır

Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvaya səfəri iki ölkə arasında münasibətlərin kritik vəziyyət aldığını bir daha təsdiqlədi. Qarşılıqlı atmaca ritorikasından istifadə, Samvel Karapetyanın Rusiya pasportu daşıdığı üçün seçkidə iştirakının mümkünsüzlüyünün açıq kontekstdə dilə gətirilməsi, KTMT narazılığı, Aİİ üzvü ola ola Aİ-yə üzvlüklə bağlı cəhdlərin edilməsi kimi məsələlər vəziyyətin gərginliyini bir daha ortaya qoyur. Bir sıra siyasi təhlilçilər münasibətlərin parlament seçiklərindən sonra daha da gərginləşə bilmə ehtimalını irəli sürürlər. Bildirilir ki, seçkidə Paşinyanın qələbə çalacağı təqdirdə Ermənistan Rusiyadan bir qədər də uzaqlaşacaq. Bu isə Kremlin "xoşuna gəlmir".

Bu səbəbdəndir ki, Rusiya Ermənistana qarşı açıq təzyiqi daha fərqli üsullarla həyata keçirməyə çalışır. Uzun illər "forpost" kimi dəyərləndirilən Ermənistanın iqtisadiyyatının Rusiyadan asılılığı sirr deyil - bu ölkənin enerji təminatı və digər təminatlar məhz Rusiya tərəfindən qarşılanır. Hətta Ermənistanın dəmir yollları bu və ya digər şəkildə birbaşa Rusiya mülkiyyəti hesab edilir. Bu mənada, Ermənistanın Rusiyasının iqtisadi asılılığından xilası olduqca çətin dəyərləndirilir - xüsusilə qaz idxalı ilə bağlı məsələdə İrəvan demək olar ki, "tərk-silahdır".



**Ermənistan idxal etdiyi qazın 90 faizini....**

Qeyd edək ki, Ermənistan qaz təminatının mühüm hissəsini Rusiyadan alır. Qazprom Ermənistan QSC-nin yaydığı hesabata görə, 2025-ci ildə Ermənistanda təbii qaz təchizatının həcmi 2 milyard 318,6 milyon kubmetr təşkil edib. Bu dövrdə istehlakçılara 2 milyard 223,1 milyon kubmetr təbii qaz verilib. Ötən ilin yanvar-dekabr aylarında enerji və sənaye sektorlarına təbii qaz təchizatı müvafiq olaraq 333,4 və 277 milyon kubmetr təşkil edib.

Ermənistanın hər il Rusiyadan aldığı qazın miqdarı da 2 milyard kubmetrdən çoxdur - başqa sözlə, İrəvan özünün qaz təminatının təxminən 90 faizə yaxınını məhz Rusiyadan alır. 2024-cü ildə tədarük 2 milyard 367,9 milyon kubmetr təşkil edib. 2023-cı ildə isə bu rəqəm 2 milyard 444,8 milyon kubmetr təşkil edib. 2022-ci ildə isə Ermənistan Rusiyadan 2 milyard 599,6 milyon kubmetr qaz alıb. Ermənistana qaz tədarükü "Qazprom"un törəmə müəssisəsi olan "Qazprom Ermənistan QSC" tərəfindən həyata keçirilir. Təbii qazdan əlavə, Rusiya ölkənin mayeləşdirilmiş təbii qaz tədarükünün təxminən 96 faizini təmin edir. Ermənistan özünün az miqdarda qaz təminatını isə İran vasitəsilə əldə edir.

**Putin eyham vurdu - 177,5 dollara...**

Bu məsələdə ən "kilid məqam" isə qazın qiymətindədir. Qeyd edək ki, aprelin 1-də Putin ilə Paşinyan arasında keçirilən görüşdə Rusiya prezidenti bu məsələyə eyham vurdu - Putin Paşinyana ölkəsinin Rusiya qazını hansı şərtlərlə aldığını xatırlatdı. "Enerjiyə gəldikdə, ümid edirəm ki, burada vəziyyət yaxşılaşacaq, amma bildiyiniz kimi, enerji qiymətləri, xüsusən də Avropada qaz qiymətləri hazırda min kubmetr üçün 600 dollardan çox yüksəlir. Rusiya isə Ermənistana qazı 177,50 dollara satır. Fərq əhəmiyyətlidir".

Putin həmçinin qeyd etdi ki, İrəvanın bu məsələyə öz yanaşması var: "Amma biz burada da tez-tez mübahisə edirik. Bilirəm ki, enerji qiymətlərinin müəyyənləşdirilməsi üçün bir az fərqli metodlarda israr edirsiniz. Amma bu, yenə də fərqli bir miqyasdır - 600 dollar və 177,5 dollar".

Birdən-birə Ermənistana satılan qazın qiymətinin və bunun azlığının belə açıq şəkildə bəyan edilməsinin arxasında siyasi məqsədlərin dayandığı da sirr deyil. Ermənistanın KTMT-dən çıxmaq, Aİİ ilə paralel şəkildə Ai ilə də münasibətlər qurmaq siyasəti Rusiyanı "dilə gətirib". O da təsadüfi deyildi ki, Putin-Paşinyan görüşünün ardından Kremlin Avrasiya inteqrasiyası üzrə məsul şəxsi, Rusiya baş nazirinin müavini Aleksey Overçuk TASS dövlət xəbər agentliyinə verdiyi müsahibədə bildirdi ki, Ermənistan Rusiyanın onunla iqtisadi münasibətlərini yenidən qurmalı olduğu nöqtəyə çox yaxındır. Yəni, Ermənistan özünün "siyasi qərarlarında" korrektə etməyəcəyi təqdirdə, Rusiya İrəvanla iqtisadi münasibətlərinə "diqqət yetirəcək".

**Ermənistan inanmır...**

Qiymətlərə yenidən "baxış" isə Ermənistan üçün xoş perspektiv vəd etmir. Onsuz da iqtisadi çətinlik içində olan Ermənistanın Rusiyadan idxal etdiyi qazın qiyməti qalxacağı təqdirdə hansı addımları ata biləcəyi sual doğurur. Amma rəsmi İrəvan bu versiyaya inanmaq istəmir. Ermənistan parlamentinin sədri Alen Simonyan ölkə bazarı üçün Rusiya qazının qiymətlərinin artırılmasını az ehtimal olunan hesab edir. Bu barədə o, jurnalistlərə bildirib. "Belə söhbətlər yeni deyil və məsələn, qazın və ya malların qiymətləri ilə bağlı müzakirələr uzun illərdir aparılır və əgər belə bir qərar qəbul edilərsə, Ermənistan öz qərarını verəcək və həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT), həm də Avrasiya İqtisadi İttifaqından (AİI) çıxacaq. Amma mən düşünmürəm ki, iş bu yerə çatsın, çünki ölkə rəhbərləri arasında çox yaxşı, məhsuldar və səmərəli söhbətin baş tutduğunu da bilirəm", - Simonyan deyib. O əlavə edib ki, Ermənistan Rusiyaya qarşı heç bir addım atmayıb və atmır.

"Biz Rusiyaya qarşı heç nə etməmişik, etmirik və etməyəcəyik, lakin bununla belə Ermənistan Respublikasının maraqlarını müdafiə edəcəyik", - o qeyd edib.

Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan eyni məsələ ilə bağlı bildirib ki, Ermənistan üçün Rusiya qazının qiyməti çox güman ki, dəyişməyəcək, çünki tərəfdaşlar üçün Ermənistanın KTMT və AİI tərkibində qalması vacibdir.

***SADİQ***

# Vyetnam Prezidentini seçdi...

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam ölkənin Prezidenti seçilib. Milli Assambleyanın aprelin 7-də keçirilən iclasında To Lamın 2026-2031-cü illər üçün Vyetnam Sosialist Respublikasının Prezidenti vəzifəsinə seçilməsi məsələsinə baxılıb. Səsvermədə iştirak edən 495 deputatın hamısı onun namizədliyini dəstəkləyib. Seçkidən sonra To Lamın andiçmə mərasimi olub.

Qeyd edək ki, To Lam 2024-cü ilin may-oktyabr aylarında da Vyetnamın Prezidenti olub. O, həmin ilin avqustunda Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi seçilib. To Lam cari ilin yanvarında yenidən partiyanın rəhbəri seçilib.

## To Lam kimdir?

To Lam 10 iyul 1957-ci ildə Vyetnamın Hunq Yen əyalətinin Van Qianq şəhərində anadan olub. O, Xalq Silahlı Qüvvələrinin Qəhrəmanı, Hai Hunq əyalətinin keçmiş polis polkovniki To Quyenin böyük oğludur. Lam inqilabçı fəallar ailəsində anadan olub, gənc yaşlarından tarix və ölkənin vəziyyəti haqqında dərs deyib. Atasının yolunu davam etdirən To Lam təhlükəsizlik üzrə təhsil alıb. To Lamın ictimai təhlükəsizlik sahəsində karyerası 1974-cü ildə Mərkəzi Polis Məktəbində təhsili ilə başlayıb, ardınca 1974-cü ilin oktyabrından 1979-cu ilin oktyabrına qədər Vyetnam Xalq Təhlükəsizliyi Akademiyasında təhsil alıb. Təhlükəsizlik üzrə dərəcə aldıqdan sonra Vyetnam Xalq İctimai Təhlükəsizliyi Xidmətinə qoşulub. 1979-cu ilin oktyabrından 1988-ci ilin dekabrına qədər İctimai Təhlükəsizlik Nazirliyinin I Siyasi Mühafizə İdarəsində xidmət edib. 1988-ci ilin dekabrında I Siyasi Mühafizə İdarəsinin rəis müavini vəzifəsinə yüksəlib və bu vəzifədə 1993-cü ilə qədər çalışıb.

1993-cü ildən 2006-cı ilə qədər To Lamın karyerası inkişaf edərək İctimai Təhlükəsizlik Nazirliyinin I və III Siyasi Mühafizə Departamenti də daxil olmaqla müxtəlif departamentlərində direktor müavini, daha sonra direktor vəzifələrinə yüksəlib. 2006-cı ildə Baş Mühafizə İdarəsinin müdir müavini təyin edilib, 2007-ci ildə isə general-mayor rütbəsinə yüksəlib. Onun bu sahədə yüksəlişi 2009-cu ildə Baş Təhlükəsizlik Departamentinin I direktoru vəzifəsinə qədər davam edib, 2010-cu ilin iyul ayında general-leytenant rütbəsinə layiq görülüb.



To Lamın nüfuzu 2010-cu ilin avqust ayında İctimai Təhlükəsizlik nazirinin müavini təyin edildikdən, 2011-ci ilin yanvar ayında Vyetnam Kommunist Partiyasının 11-ci Milli Qurultayında Partiya Mərkəzi Komitəsinin üzvü olduqdan sonra daha da artıb. O, 2011-ci ilin iyun ayında Mərkəzi Polis Partiya Komitəsinin katibi təyin edilib, 2014-cü ilin sentyabr ayında Prezident Çıonq Tan Sanq tərəfindən general-polkovnik rütbəsinə layiq görülüb. 2016-cı ilin aprel ayında Prezident Tran Dai Quanq tərəfindən Korrupsiyaya qarşı Mübarizə üzrə Mərkəzi Rəhbər Komitəsinin sədr müavini təyin edilib. Beləliklə, o, 2016-2024-cü illər ərzində ictimai təhlükəsizlik naziri və Korrupsiyaya qarşı Mərkəzi Rəhbər Komitəsinin sədrinin müavini də daxil olmaqla bir sıra mühüm vəzifələr tutub.

To Lam 2011-ci ildən Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin, 2016-cı ildən isə partiyanın Siyasi Bürosunun üzvüdür.

To Lam müasir Vyetnam tarixində 15-ci prezident olub. O, dövlət başçısı vəzifəsində 2024-cü il oktyabrın 21-dən bu postu tutan Lionq Kionqu əvəz edib.

## To Lam Azərbaycanda səfərdə olub

Xatırladaq ki, ötən ilin may ayında To Lam Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi kimi Azərbaycana dövlət səfəri edib. Səfər zamanı o, Prezident İlham Əliyevlə görüşüb, mətbuata bəyanatla çıxış ediblər. Eləcə də bir sıra sənədlər imzalanıb ki, bütün bunlar əlaqələrin gələcək perspektivlərindən xəbər verir. Xüsusilə, "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ın qəbul edilməsi böyük əhəmiyyət kəsb edir. Bu, o deməkdir ki, Azərbaycanın dünyada strateji tərəfdaşlarının sayı əhəmiyyətli dərəcədə artmaqdadır. Mətbuata bəyanat zamanı Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan ilə Vyetnam arasında qəbul edilmiş Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyanat əslində, Vyetnam-Azərbaycan əlaqələrini daha yüksək pilləyə qaldıran bir sənəddir. Ölkələrimiz, həmçinin ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da Vyetnamda önəmli layihələr reallaşdırır. Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. 2025-ci ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Bundan əlavə, Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında da əlaqələr inkişaf edir. 2023-cü ilin noyabrında hər iki partiya tərəfindən Əməkdaşlıq Sazişi imzalanıb.

***Nardar BAYRAMLI***

# Kiyevdən Moskvaya “enerji atəşkəsi” təklifi...

Yaxın Şərqdə davam edən münaqişə ilə yanaşı, Rusiya-Ukrayna müharibəsi də səngimək bilmir. Hər iki ölkə qarşılıqlı olaraq hücum edir və bunun nəticəsində də dağıntı və itkilər artır. ABŞ-ın İranla müharibəyə diqqət ayırması Kiyevə hərbi dəstəyi müəyyən qədər azaldıb. Bu da Rusiyanın artan hücumları qarşısında Ukraynanın vəziyyətini çətinləşdirir. Təsadüfi deyil ki, Ukrayna Prezidenti Volodimir Zelenski “Associated Press”ə verdiyi müsahibəsində ABŞ və İsrailin İrana qarşı müharibəsinin Amerikanın Kiyevə dəstəyini daha da zəiflədə biləcəyini söyləyib.

## Rusiya “Pasxa atəşkəsi” təklifini rədd edib

Onun sözlərinə görə, Ukraynanın Rusiyanın gündəlik hücumlarına qarşı tab gətirməsi üçün təcili olaraq Amerikanın əlavə “Patriot” sistemlərinə ehtiyacı var. Zelenski Kiyevin hələ də ballistik raketləri zərərsizləşdirmək üçün bu sistemlərə təsirli alternativinin olmadığını vurğulayıb. O, etiraf edib ki, Yaxın Şərqdəki yeni müharibə fonunda Ukrayna artıq beynəlxalq diqqət mərkəzində deyil. Buna görə də, Kiyev İran üzərində uzunmüddətli münaqişənin ABŞ-ın dəstəyinin daha da azalmasına səbəb olacağından qorxur. “Etiraf etməliyik ki, bu gün biz prioritet deyilik”, - deyə Ukrayna lideri vurğulayıb.

Belə bir şəraitdə Zelenski bir neçə gün əvvəl Pasxa bayramı münasibətilə atəşkəsin elan olunmasını təklif etmişdi. O ümid edirdi ki, ABŞ Kiyev və Moskva arasında “Pasxa atəşkəsi” təklifini dəstəkləyəcək. Pasxa bayramı aprelin 12-də başlayır və bir neçə gün davam edəcək. “Ümid edirəm ki, ABŞ qətiyyətli qalacaq və Rusiyanı üçtərəfli görüşə qoşulmağa və sülh bağlamağa inandırmağa kömək edəcək. Mən bunu demişəm və bu gün də təkrar edirəm: biz Pasxa bayramı günlərində atəşkəs təklif etdik. Ümid edirik ki, ABŞ bunu dəstəkləyəcək. Biz Rusiyadan cavab gözləyirik”, - deyə o söyləyib. Lakin Rusiya tərəfi bunu rədd edib və təklifə Ukrayna ərazisinə güclü hücumlarla “cavab” verib. Zelenskinin “Pasxa atəşkəsi” ilə bağlı Roma Papası XIV Leo ilə telefon danışığı da heç bir nəticə verməyib.

## Moskvanın şərti...

Belə olan halda, Ukrayna Rusiyaya “enerji atəşkəsi” təklifi irəli sürüb. Bu barədə Volodimir Zelenski “Teleqram” səhifəsində məlumat verib. “Əgər Rusiya enerji sektorumuza hücumları dayandırmağa hazırdırsa, biz də eyni şəkildə cavab verməyə hazır olacağıq. Amerikalılar vasitəsilə belə bir təklifi Rusiya tərəfinə çatdırmışıq”, - deyə Prezident vurğulayıb. Lakin rəsmi Moskva Ukraynadakı münaqişənin aktiv mərhələsinə son qoymağın Ukrayna qoşunlarının Donbasdan çıxarılması şərti ilə mümkün olduğunu bildirib. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov brifinqdə Ukrayna qoşunlarının Donbasdan çıxarılmasının münaqişənin siyasi və diplomatik yolla həllinə doğru irəliləmək üçün zəruri şərt olduğunu qeyd edib. O, bu şərtin yerinə yetirilməsi üçün konkret bir müddətin müəyyənləşdirilmədiyini əlavə edib. Peskov qərarın Ukrayna rəhbərliyi, xüsusən də Prezident Volodimir Zelenski tərəfindən verilməli olduğunu bildirib. Peskov vurğulayıb ki, Rusiya məqsədlərinə çatana qədər xüsusi hərbi əməliyyatı davam etdirmək niyyətindədir.



## Ukrayna müharibəni texnoloji müstəviyə keçirir?

Mövcud şəraitdə Ukrayna müharibəni texnoloji müstəviyə keçirməyə çalışır. Ukrayna Ali Radasının Müdafiə və milli təhlükəsizlik, kəşfiyyat məsələləri üzrə alt komitəsinin sədri Fedor Venislavski deyib ki, Rusiyanın Ukrayna ərazisində qoşunlar qrupunu 2024-cü ildəki 520 mindən 2025-ci ildə 700 minə qədər artırmasına rəsmi Kiyev simmetrik cavab verərək vətəndaşlarının səfərbərliyini artıra bilməz. O qeyd edib ki, bunun əvəzinə Ukrayna müharibəni texnoloji müstəviyə keçirir: “Müdafiə naziri Fyodorov məhz bunu bəyan etdi ki, bizim əsas məqsədimiz işğal qoşunlarının canlı qüvvədə, texnikada mümkün qədər çox itki verməsidir. Biz hazırda bunun üzərində işləyirik”.

Səfərbərlik zamanı baş verən insidentlərdən danışan alt komitənin sədri bildirib ki, müharibənin gedişi zamanı işləyən mexanizmlərdə kəskin islahat aparılmasının əleyhinədir: “Hazırda hər şeyin yaxşı olduğunu söyləmək əlbəttə ki, mümkün deyil. Hər ay təxminən 30 min vətəndaş səfərbər olunur, 2025-ci il ərzində isə ümumilikdə səfərbərlik ilə bağlı hərbi komissarlıq və polis əməkdaşlarının qanunsuz hərəkətləri ilə bağlı şikayətlər təxminən 5 min olub. Yəni bu, bütün səfərbər edilənlərin ümumi sayının 1 faizindən bir az çoxudur”. F.Venislavski deyib ki, qanun pozuntuları ilə bağlı faizin aşağı olmasına baxmayaraq, Ali Radanın Milli Təhlükəsizlik, Müdafiə və Kəşfiyyat Məsələləri üzrə Komitəsi, Prezident Ofisi, Ukrayna Müdafiə Nazirliyi və Silahlı Qüvvələrin Komandanlığı münaqişəli vəziyyətlərin ümumiyyətlə olmaması və ya minimuma endirilməsi üçün maksimum səy göstərir: “Biz gözləyirik ki, Müdafiə Nazirliyi səfərbərlik məsələlərini və çağırış komissarlıqlarının fəaliyyətini təkmilləşdirmək üçün hansısa yeniliklər hazırlayacaq”.

Ukrayna Prezidenti Ofisinin rəhbəri Kirill Budanov isə “Bloomberg”ə açıqlamasında bildirib ki, ABŞ Prezidentinin elçisi Stiv Uitkoff və sahibkar Cared Kuşnerin rəhbərlik etdiyi Amerika nümayəndə heyəti 12 apreldən sonra Kiyevə səfər edə bilər. Onun sözlərinə görə, nümayəndə heyətinin tərkibində respublikaçı senator Lindsi Qremin olması da mümkündür. “Kuşner, Uitkoff və Lindsi Qrem - məhz onları gözləyirik. Görək orada başqa kimlər olacaq”, - deyən Budanov əlavə edib ki, Amerika nümayəndə heyətinin səfərindən sonra Ukraynanın əhəmiyyətli təhlükəsizlik zəmanətləri ala bilər. “Nə istədiyimizi çoxdan müəyyən etmişik. Düşünürəm ki, bu, tezliklə həyata keçiriləcək. Bundan sonra nə baş verəcəyi başqa məsələdir. Amma təhlükəsizlik zəmanətləri ilə bağlı mütləq irəliləyiş əldə etmişik”, - deyə Prezident Ofisinin rəhbəri vurğulayıb.

*N.BAYRAMLI*

# Yuvasını yandıran vulkan

## İvan Qonçarovun “Uçurum” romanı haqqında

Turgenevlə Qonçarov 1847-ci ildə məşhur tənqidçi Vissarion Belinskinin evində keçirilən ədəbi axşamların birində tanış olmuşdular. Bundan sonra dostlaşıb məktublaşmağa, bir-birinə yazdıqları, yazmaq istədikləri əsərlərdən, süjetlərdən, qəhrəmanlardan danışmağa başlamışdılar. Görüşlərin birində Qonçarov dostuna üstündə işləməyə hazırlaşdığı yeni romandan söz açmış, əsər üçün nəzərdə tutduğu süjet xəttindən, personajlardan bəhs eləmiş, bir sözlə, bəzi yaradıcılıq sirlərini Turgenevlə bölüşmüşdü.

1858-ci ildə Turgenev “Dvoryan ocağı” romanını bitirib tənqidçilərə, qələm yoldaşlarına oxuyanda Qonçarov müəllifi plagiata suçlamışdı: yazıçı bu qənaətə gəlmişdi ki, Turgenevin yeni əsərinin istər fabulasında, istərsə də obrazların xarakterik cizgilərində bir çox cəhət onun hələ neçə il sonra işıq üzü görəcək (bəzi parçaları dövri mətbuata çıxarılmışdı) romanından əxz olunub, başqa sözlə, oğurlanıb. Qonçarov əvvəllər Turgenevə danışdıqlarıyla onun yazdıqları arasında bir xeyli bənzərlik tutmuşdu, buna görə də düşünürdü ki, Turgenev onun ideyalarını çırpışdırıb. Bu səbəbdən bəzi epizodları romandan silməyi müəllifdən tələb eləmiş, Turgenev də onunla razılaşmışdı. İvan Aleksandroviçlə İvan Sergeyeviç ədəbi gecələrdə bundan sonra da üzüzə gəlib görüşmüşdülər, ancaq bir-birinə yazdıqları məktublar seyrəlmişdi.

1860-cı ildə Turgenevin “Ərəfə” romanı jurnalda nəşr olundu. Qonçarov onu yenə oğurluqda suçladı. Onda Turgenev söz xiridarlarından ibarət yoldaşlıq məhkəməsi qurmaq təklifi irəli sürdü - qoy nüfuzlu ədəbiyyat adamları müəyyənləşdirsinlər ki, Turgenev Qonçarovun “Uçurum” romanının motivlərindən öz romanlarında yararlanıb, ya yox. Qonçarov təkliflə razılaşdı.

Məhkəmə həmin ilin mart ayında keçirildi. Sanballı tənqidçilər, ədəbiyyatşünaslar bu qənaətə gəldilər ki, çəkişən iki yazıçının yaradıcılığında üst-üstə düşən məqamlar olsa da, bunları plagiat saymaq doğru deyil, bənzərliklər hər iki yazıçının eyni bir zəmində yetişməsindən, eyni dövrdə eyni mühitdə yaşamasından irəli gəlir. Qonçarov məhkəmənin qərarıyla razılaşmağa məcbur oldu, Turgenev isə bundan sonra onunla əlaqəsini biryolluq kəsdi.

Qonçarovun yazdığına görə, Belinski bir dəfə Turgenevin yanında onun ilk romanı (“Adi əhvalat”) haqqında deyibmiş ki, bu romanı şaqqalayıb ondan on povest çıxarmaq olar, o (yəni Qonçarov) isə hamısını bir çərçivəyə sığdırıb. İvan Aleksandroviç bu fikirdəydi ki, İvan Sergeyeviç məhz həmin üsuldan yararlanıb, “Uçurum” romanını doğrayıb-çapmaqla ondan nə az, nə çox, düz üç roman çıxarıb - “Dvoryan ocağı”, “Ərəfə”, bir də “Atalar və oğullar”. Həm də təkcə məzmunu, xarakterləri yox, əsərin planını da mənimsəyib!

Xarakter, süjet, məzmun bənzərliyi öz yerində - bu məsələlərlə bağlı inandırıcı olan da, olmayan da arqumentlər var. Ancaq bir mühüm məsələni unutmaq olmaz ki, bu iki böyük yazıçının ideya-fəlsəfi, mənəvi-etik (bunları açıq mətnlə, çılpaq dillə bəyan eləməsələr belə), hətta ictimai-siyasi baxışları arasında bəzən bir-birinə daban-dabana zidd gedən ciddi fərqlər də var. “Oblomov”, “Atalar və oğullar” romanlarından danışanda biz bu fərqlərə yüngülcə toxunmuşduq, hətta Çexovun “Altı nömrəli palata” povestini Oblomovla Bazarovun - stoiklə anarxistin dialoqu kimi izah eləməyə çalışmışdıq. Bəli, Oblomovun antipodu Bazarova bənzər obraz “Uçurum” romanında var, ancaq gəlin görək, Qonçarovun durduğu ideya-fəlsəfi platformadan həmin obraz necə görünür? Əminəm ki, bu sualın düzgün cavabı 166 il bundan qabaq keçirilmiş yoldaşlıq məhkəməsinin qərarından daha maraqlı, daha ötədir.

***

Qonçarovun üç romanı var. Hər biri müstəqil əsər olsa da, müəllif bu romanları bir-birinin davamı, eyni bir əsərin qolları, yəni bir növ trilogiya sayırdı. Maraqlıdır ki, orijinalda romanların adları da eyni hərflərlə, daha doğrusu, “ob” hissəciyi ilə başlayır: “Obıknavennaya istoriya”, “Oblomov”, “Obrıv”. Üçüncü romanın adı dilimizə bəlkə “Yamac”, “Yarğan” kimi də çevrilə bilər, ancaq əsərin məzmunundan, adın rəmzi mənasından yola çıxsaq, məncə, “Uçurum” daha doğru variantdır. Əsərlərdən həcmcə ən böyüyü, süjet, kompozisiya baxımından ən mürəkkəbi də elə bu romandır. Qonçarov “Uçurum”u fasilələrlə iyirmi il yazıb bitirib. Əsər “Oblomov”dan düz on il sonra - 1869-cu ildə işıq üzü görüb. On ildən bir bar verən ağac kimi müəllif təqribən iyirmi bir-iyirmi iki il ərzində üç sanballı roman ərsəyə gətirib, bununla da dünya ədəbiyyatının altun kitabına adını qızıl hərflərlə yazdırıb.

“Uçurum” yəqin ki, məhəbbət romanı sayılmalıdır, çünki bu kitabda bir xeyli məhəbbət xətti, sevgi epizodu, qadın-kişi, erkək-dişi rabitəsi var. Doğrudur, bu münasibətlərin hamısına anladığımız mənada məhəbbət demək olmaz, bunların arasında saf, məsum mömin sevgi də, sadədil itaətkarlıq da, çılğın romantik ehtiras da, yırtıcı heyvani instinkt də, qadına antik üslubda baxış da, nikaha bəzən anarxist, bəzən utilitarist münasibət də, klassik ailə institutuna konservativ sədaqət də, ənənəyə liberal xəyanət də var. Xülasə, hər cür sifətiylə, hər cür üzüylə əldən-ələ, candan-cana, nəsildən-nəslə keçən məhəbbət. Qonçarov hər “növ” məhəbbətə aid psixoloji portret, dolğun xarakter yaratmağı bacarıb, onu yaşadığı dövrün ən böyük psixoloqlarından biri sayanlar bu baxımdan tam haqlıdırlar. Ədəbiyyatşünaslar “Uçurum” romanını məhz psixoloji roman kimi xarakterizə eləyirlər.

Roman beş bölümdən ibarətdir. Birinci bölümdə hadisələr Peterburqda cərəyan eləyir. Otuz beş yaşlı dvoryan Boris Pavloviç Rayski öz mənzilində qırx yaşlı məmur dostu Ayanovla söhbətləşir. Onlar Rayskinin qohumu Sofya Belovodskayanı ziyarətə getməyə hazırlaşırlar. Sofya iyirmi dörd yaşlı dul qadındır. Anası onun toyunu görmədən ölüb, atası sərvətini qadınlara xərcləyib. Belovodskaya iki varlı bibisiylə yaşayır, Rayski onunla söhbətləşdiyi müddətdə bibilər Ayanovla kart oynayırlar. Təbiətcə romantik olan Rayskini durğun həyat darıxdırır, o bilmək istəyir ki, mərmər heykəllər kimi soyuq, laqeyd qohumu nə vaxtsa duyğu tufanı, ehtiras fırtınası qoparmağa qadir olacaqmı? Boris Sofyanı ənənə buxovlarını qırmağa, həyatından zövq almağa, sevməyə, əzab çəkməyə çağırır. Rayski peşəkar səviyyəyə çatmamış rəssamdır, Sofyanın portretini çəkmək istəyir, bundan ötrü qadının hisslərini coşdurmağa, onu incəsənət obyektinə çevriləcək bir hala gətirməyə çalışır.

Fəqət Rayskinin yaradıcı arzuları bir portretin dar çərçivəsinə sığmır, onun daha böyük planı var: Boris Pavloviç özünü yazıçı kimi sınaqdan çıxarmaq, roman yazmaq niyyətindədir. Bunun üçün də zəngin həyat materialı toplamalı, dərin, təlatümlü duyğular okeanına baş vurmalıdır. Ta uşaqlıqdan onun ədəbiyyata, rəssamlığa, musiqiyə marağı var, daha dəqiqi, Rayskini incəsənətdən, gözəllikdən savayı heç nə maraqlandırmır. Məhz buna görə on ildən bəri yaşadığı Peterburqda qulluğundan da istefa verib. Ata-anasını uşaqkən itirdiyindən Boris qohumlarının himayəsində böyüyüb. Məktəbdə oxuyanda alman müəllimi Borisi bir cümləylə belə xarakterizə eləyərmiş: “Onun qabiliyyəti heyrət doğurur, tənbəlliyi isə bundan da heyrətamizdir”. Qonçarov özü də deyirdi ki, Rayski yatağından qalxıb həyatın içinə yerimiş Oblomovdur.

davamı növbəti sayımızda



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Daha 33 ailə sevindi...








Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam etdirilir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na əsasən, Xocavənd şəhərinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr öz yurdlarına qovuşublar.

Dünən növbəti köç karvanı ilə Xocavənd şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub. Xocavənd şəhəri 33 ailə olmaqla, 142 nəfərə qucaq açıb. Şəhərdə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Yeni köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına azad edən qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda, döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Onlar bildiriblər ki, bu gün başlayan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

Qeyd edək ki, bu mərhələdə Xocavənd şəhərinə 33 ailə olmaqla, 142 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, düşərgə, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

# Dünyaya yayılmış, amma vətəni olmayan xalq...

## Qaraçıların gizli qanunları və həyat fəlsəfəsi

Onların həyatı çoxlarına qeyri-adi görünür, çünki bu həyat azadlıq, ənənə və sirr dolu bir dünyanı özündə birləşdirir. Yəhudilər kimi İkinci Dünya müharibəsi zamanı soyqırımla üzləşiblər. Sanki ikinci dərəcəli deyil, üçüncü dərəcəli insanlar kimi rəftarlara məruz qalıblar, tamamilə lazımsız, hətta təhlükəli hesab ediliblər. Müharibə zamanı nasistlər tərəfindən qətlə yetirilən qaraçıların ümumi sayı dəqiq məlum deyil. Ancaq hətta ən mühafizəkar hesablamalara görə, onların sayı 200 mindən 1,5 milyon nəfərə qədər dəyişir.

Bu gün Beynəlxalq Qaraçı günüdür. Bu köçəri xalqın orijinallığını və mədəniyyətini qorumaq məqsədilə 1971-ci ildə Londonda Qaraçıların Beynəlxalq İttifaqı yaradılıb, qaraçılara bayraq və himn seçilib.

### Dəqiq rəqəm bəlli deyil...

Qaraçılar Hind-Avropa mənşəli köçəri xalqlardandır. Onlar haqqında məlumat ilk dəfə 1501-ci ildə qeydə alınıb. Qaraçılar demək olar ki, bütün qitə və materiklərdə yaşayıblar. Ənənəvi olaraq atçılıqla və maldarlıqla yanaşı, həm də öz dədə-baba sənətləri olan nalbəndlik, xırda məişət avadanlıqları, kənd təsərrüfatı alətləri istehsalı ilə məşğul olublar. Dünyada qaraçıların ümumi sayı haqqında dəqiq rəqəmlər göstərilmir. Bunun səbəbi də onların daim köçəri həyat tərzi sürməsi və çox ölkədə onların qeydiyyata alınmamasıdır. Onların böyük hissəsi rəsmi sənədi olmadan yaşayır.



### Niyə qaraçıların öz ölkəsi yoxdur?

Qaraçılar Azərbaycandan tutmuş, Mərkəzi və Şərqi Avropaya qədər yayılıblar. Onların ilk kiçik dəstələri XV əsrin əvvəllərində Avropanın şərq hissələrində görünüb. Lakin Avropaya haradan və nə üçün gəldikləri məlum deyil. Qəribə burasıdır ki, az vaxt içərisində bir-birindən çox uzaq olan ölkələrdə onların bu qədər artıb çoxalmasına heç kəs inana bilmir.

Qaraçı dövlətinin heç vaxt yaranmaması ilə bağlı kimisə qınamaq çətindir. Tarixdə bir növ qaraçı dövlətinin mövcudluğunu göstərən bir nümunə var idi. Venesiya Respublikasının sənədlərinə görə, Korfu adasında (indiki Yunanıstan ərazisi) 1375-ci ildən Feudum Acinganorum, yaxud azərbaycanca desək, qaraçıların mülkü olub. Bu “mülkiyyət” müəyyən daxili müstəqilliyə malik olan bir sıra icmalardan ibarət idi.

Məsələn, hər bir icmanın öz məhkəməsi var idi, bir qayda olaraq, qaraçı baronlarından ibarət idi, hər hansı bir hökm çıxarmaq hüququna malik idi-ölümə qədər. Əhalinin əksəriyyəti isə hər növ sənətkarlıq və dəmirçiliklə məşğul olurdu.

Qaraçı “ölkəsi” Feudum Acinganorum 19-cu əsrin əvvəllərinə qədər davam edib. Sonra Venesiya Respublikası süqut edib və Korfu adası əvvəlcə Fransanın, daha sonra Rusiya və Türkiyənin tərkibinə daxil olub, sonra isə tamamilə İngiltərəyə keçib. Ancaq etiraf edək ki, qanunvericilik və məhkəmə hakimiyyətinin iştirakı ilə oturuşmuş, tam hüquqlu qaraçı dövlətinin nümunəsi həqiqətən unikaldır!

1990-cı ildə Serokedə (Polşa) keçirilən IV Ümumdünya qaraçı Konqresində nasist soyqırımı qurbanlarına və onların nəsillərinə təzminat ödənilməsi məsələsi qaldırılıb və 2000-ci ildə Rusiyadan olan qaraçılar ilk dəfə Praqada keçirilən V Konqresdə iştirak ediblər. Və bu yalnız başlanğıc idi.

2012-ci ildə Belqradda keçirilən VIII Qaraçı qurultayında gələcəkdə qaraçı milli dövlətinin yaradılmasına çalışmaq qərara alınıb. Konqres çərçivəsində beynəlxalq qaraçı pasportunun modeli və pul vahidi olan lavoro qəbul edilib. Bir az əvvəl ümumi qaraçı bayrağı və himni seçilib. Bir az da irəli gedilsəydi, qaraçıların bayrağı, pasportu, milli valyutası olan öz ölkəsi olardı. Lakin müəyyən məqamda hər şey plan üzrə getməyib: belə dəyişikliklərdən narazı olanlar olub və VIII qurultay zamanı parçalanma baş verib. Yuxarıda göstərilən bütün qərarlarla razılaşmayanlar onları qeyri-qanuni elan ediblər və bu mənada qaraçı dövləti yaratmaq fikrindən əl çəkiblər.

### Hipnoz etməyi yaxşı bilirlər...

Qaraçıların özlərinə məxsus elə adət-ənənələri var ki, bunlar heç bir xalqa mənsub deyil. Hazırda dünyada qaraçıları məşhur edən musiqi və rəqsdən sonra faldır. Falçıların çox vaxt həqiqətə yaxın məlumatlar əldə etməsi həmişə maraq doğurur. Qaraçıların əksəriyyəti hipnoz etməyi yaxşı bilir və bunu heç də xeyirli məqsədlər üçün istifadə etmirlər. Bu səbəbdən də söhbət zamanı onların gözlərinin içinə baxmaq çox təhlükəlidir.

Qaraçıların ən sevimli yeməyi qızardılmış kirpidir. Bunu ən çox Polşa və Baltikyanı qaraçıları sevir. Sərxoş qaraçını görmək mümkünsüzdür. Qaraçılar spirtli içkini o qədər də qəbul etmir. Gənclərə isə böyüklərin yanında içmək qadağandır.

Qaraçı qızları üçün ailə qurmaq yaşı 14-dür. Adətə görə, 14 yaşı tamam olan qız artıq məclislərdə oynamağa subay oğlanların və onların atalarının diqqətini çəkməyə çalışır. 19 yaşında ailə qurmayan qız “qoca qız” hesab edilir. Qaraçı ailələrində toy günü xeyli maraqlı olur.

Gəlinin atası və qardaşı ona ya kiloqram, ya da bankalarda qızıl hədiyyə edir. Bankaların içi qızıl üzük, bilərzik, sırğa ilə dolu olur.

Bununla yanaşı, qaraçılar haqqında cəmiyyətdə çoxlu stereotiplər mövcuddur. Onlar bəzən anlaşılmayan və ya yanlış tanınan bir toplum kimi qəbul edilirlər. Müasir dövrdə qaraçıların bir qismi artıq oturaq həyata keçsə də, bir çoxları hələ də köçəri ruhunu qoruyur.

***Yeganə BAYRAMOVA***

## İtmişdir

2 nömrəli Bakı Baza Tibb Məktəbi tərəfindən 13.12.1964-cü il təvəllüdlü Əliyeva Cəmilə Tanrıverdi qızına feldşer laborant ixtisası üzrə verilmiş 030991 nömrəli diplom (1982-1984-cü illər) itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5179**
**Sifariş: 465**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova